

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

№ 022 (6947)

SƏS

6 fevral 2024-cü il.
Qiymәti 60 qәpik

## Azərbaycan XİN: Türkiyənin həm sevinc, həm də kədərində daim yanındayıq



6

# Şuşa – İslam dünyasına açılan PƏNCƏRƏ!




3

*Şuşa- Azərbaycanın mədəniyyət beşiyi, musiqi xəzinəsi, böyük qəhrəmanlıq yurdudur. Bu gün yenidən qurulan, dirçələn Şuşamız artıq İslam dünyasının mədəniyyət mərkəzinə çevrilib.*

# Haylar üçün fəlakət vəd edən FRANSA-ERMƏNİSTAN OYUNLARI



8

## Zəngəzur dəhlizi açılacaqmı?




12

## Müəlliflik hüququnu pozanları hansı cəzalar gözləyir?



10

## Fuad Qəhrəmanlı Əli Kərimlidən üz döndərir



10

## Əmək pensiyaları nə qədər artırılacaq?



16

## Biz hələ də bizik...



11

# “Daim Türkiyənin yanındayıq və bundan sonra da olacağıq”

## *Prezident İlham Əliyev Türkiyədə dəhşətli zəlzələnin ildönümü ilə əlaqədar Prezident Rəcəb Tayyib Ərdoğana məktub göndərib*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ötən il Türkiyədə baş vermiş dəhşətli zəlzələnin birinci ildönümü ilə əlaqədar Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana məktub göndərib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı məktubda bu dəhşətli faciə nəticəsində həlak olmuş on minlərlə insanın əziz xatirəsini dərin hörmət və ehtiramla yad edərək vurğulayıb: “Bu fəlakət Türkiyəni olduğu kimi Azərbaycanı da dərindən sarsıtdı.***

Xalqımız həmin ağır günlərdə qardaş Türkiyə xalqı ilə bir ürək olaraq, faciənin ağrı-acısını bölüşdü, sonsuz kədərini birlikdə yaşadı. Zəlzələ xəbərinin ilk dəqiqələrindən heç bir yardım çağırışını gözləmədən Azərbaycan xalqı və dövləti öz qardaşlıq borcunu yerinə yetirmək üçün bütün imkanlarını səfərbər etdi. Baş vermiş güclü zəlzələnin fəsadlarının aradan qaldırılması işlərinə və axtarış-xilasetmə əməliyyatlarına cəlb olunmuş xilasedicilərimiz, həkimlərimiz və könüllülərimiz türkiyəli həmkarları ilə çiyin-çiyinə böyük cəsarətlə, əzmlə və fədakarlıqla fəaliyyət göstərdi. Dövlət və özəl qurumlarla yanaşı, kiçikdən böyüyə hər bir soydaşımız zəlzələ qurbanlarına dəstək və mənəvi dayaq olmaq üçün əlindən gələni əsirgəmədi”.

Dövlətimizin başçısı Prezident Rəcəb Tayyib Ərdoğanın liderliyi, Türkiyə xalqının mübarizə əzmi, həmrəylik ruhu və mətin iradəsi sayəsində qüdrətli Türkiyə dövlətinin bu çətinliklərin də öhdəsindən tez bir zamanda gələcəyinə, bu acı sınaqdan şərəflə və daha da güclənmiş çıxacağına əminliyini bildirib.





# Erməni havasına oynayan AŞPA və ya həqiqətlərə göz yuman Avropa




*“Dünyadakı vəziyyət çoxdan - ermənilərin torpaq iddiası başlayandan və onların absurd, əsassız umacaqlarına qanad gərib ayaqları altına daş qoyanların sayı yağışdan ardınca peyda olan göbələklər kimi çoxalandan sonra bir az da qəlizləşib. Bizim şanlı Qələbəmiz, torpaqlarımızı işğaldan qurtarmağımız nəinki ermənilərin və ona havadarlıq edən Fransa kimi dövlətlərin, həm də o boyda AŞPA-nın işinə yaramadı. Əgər belə olmasaydı, bu təşkilat işini-gücünü atıb, cinayətkar bir dövlətin maraqlarının müdafiəsinə qalxmazdı.”*

Bu sözləri Qərbi Azərbaycan İcmasının Qadınlar Şurası sədrinin müavini Telli Pənahqızı söyləyib.

O qeyd edib ki, bu dünya AŞPA-nın rahat kürsülərində vaxt keçirməyə toplaşan, ağızlarına və ağıllarına gələni danışmaqla vəzifə borclarını başa vuran, yalanpalan məlumatları siyasət müstəvisinə çıxarıb kiməsə tərəfkeşlik etməklə bitmir, günlərin birində ən azından olmayan vicdanların ağrısına da çarə axtarmaq lazım gələcək. Bu təşkilat yaranan gündən bəri özünün ən rüsvayçı dönəmini yaşayır. Maraqlıdır, görəsən oraya toplaşan nümayəndələrin hamısımı vicdansızdır ki, Azərbaycan haqqında ermənilərin onlara ötürdüyü cəfəngiyyatı dilə gətirib millətimizə köçəri deyir, bizi Qafqaza ermənilərdən sonra gələn vəhşi tayfa adlandırır, “Onları gəldikləri çöllərə yenidən qaytarmaq lazımdır” kimi başından böyük bir hökm verməyə cəsarət edir?! Məncə, biz illərdən bəri erməni diasporunun “möhtəşəm” xidmətlərini bir qədər deyəsən şişirtməklə onları “qüdrət sahibi, ermənilərin xaricdəki yenilməz havadarı” kimi qələmə vermişik və bu da sanki ermənilərin “gücünə güc” qatıb, bəzi ermənipərəst qruplar da diasporun cəfəng fikirlərini müdafiə etmək müqabilində yaxşı qazanc yeri tapıblar. Amma gəlin unutmayaq ki, məşhur milyarder Ruben Vardanyan da ötən il bu vaxtlar Xankəndidə at oynadırdı. Amma indi o, Bakı təcridxanasında Araik Arutunyanın və əli Azərbaycan xalqının qanına bulaşmış digər canilərin koğuş yoldaşıdır.

Bu gün Azərbaycanda yaşanan möhtəşəm reallığı görməzdən gələn müxtəlif beynəlxalq təşkilatlar, o cümlədən bütün üzvlərinin uğurunu və faciəsini eyni baxış bucağından qiymətləndirməyə borclu olan AŞPA-dakı səlahiyyət sahiblərinə sual vermək istəyirəm: Ermənilərin Azərbaycan torpaqlarında törətdikləri qətliamlara illər boyu niyə susurdunuz, cəmi 44 günlük müharibədə öz ərazilərini 30 illik erməni işğalından azad edən bir ölkə ilə düşmənçiliyiniz nədən qaynaqlanır?

İllər boyu Azərbaycan ərazisini xarabazara çevirən, işğal altında saxladığı torpaqlarda salamat bir tikili belə qoymayan, minlərlə günahsız insanı qətlə yetirib evsiz-eşiyini, halal torpaqlarını zəbt edən ermənilərə niyə “gözünüz üstə qaşınız var” deməyə cəsarət etmirsiniz? Sizə mane olan, gözünüzü kor, vicdanınızı lal edən nədir?

Bu gün də minaladıqları torpaqların xəritəsini verməyən, itkin düşmüş, girov götürülmüş yüzlərlə vətəndaşımızın yerini bildirməyən ermənilər sizin gözünüzə niyə mələk cildində görünür? Niyə onlara söz deməyə, haqsız olduqlarını dilə gətirməyə cəsarətiniz çatmır? Bəlkə diasporun rüşvəti, bəlkə tərəfkeşliyi? Yoxsa qarın qardaşdan, cib vicdandan daha dəyərlidir sizin üçün?

Siz zaman-zaman özünüzü dünyanın “ən sivil avropalısı” adlandırırsınız, amma sivil insanlar daha çox əyilməz vicdanları, həqiqəti müdafiə əzmkarlığı ilə fərqlənməlidirlər. Siz isə həmişə olduğu kimi, vicdanınızı çoxdan unudub, haqdan, ədalətdən uzaq düşmüşünüz. Əgər belə olmasaydı, Azərbaycan kimi bir ölkəni hədəfə almaqdan çəkinər, bu kütləvi psixoz qərarı qəbul etməzdiniz!

“Mən Qərbi Azərbaycandakı, indiki Ermənistandakı yüz minlərlə azərbaycanlı ailədən birinin övladıyam. Ermənilər bizim ailələrimizin əlindən əmlakını, varını-dövlətini alıb qışın qarlı-çovğunlu bir günündə yurdundan didərgin salanda da siz susdunuz. Yüzlərlə soydaşımız erməni vandallarının qurbanı olanda da susdunuz!

Zori Balayan kimi bir erməni “yazıçısı”nın kitabı bəlkə sizin də evinizdə var, axı siz hədiyyə götürməyi sevirsiniz. Yəqin ki, onun Azərbaycan uşaqlarını xüsusi qəddarlıqla qətlə yetirilib sonra bu prosesi təsvir edib oxuculara necə “qəhrəmanlıq” etdiyini söylədiyini də oxumusunuz. Amma siz də onun kimi deyəsən heç vicdan ağrısı yaşamamısınız. Yoxsa bu gün o qatilin təmsil etdiyi millətin absurd ideyalarına qahmar çıxmazdınız! Heç bu barədə düşündünüz? Yəqin ki, yox! Bir daha soruşuram: Ermənilər hansı cəhətləri ilə sizin gözünüzə pərdə çəkiblər ki, siz həqiqətlərə göz yummağa çalışır, günahkarı cəzalandırmaq əvəzinə, onlara qol-qanad gərirsiniz?”, - deyə T.Pənahqızı vurğulayıb.



*Şuşa- Azərbaycanın mədəniyyət beşiyi, musiqi xəzinəsi, böyük qəhrəmanlıq yurdudur. Bu gün yenidən qurulan, dirçələn Şuşamız artıq İslam dünyasının mədəniyyət mərkəzinə çevrilib. Milli-mənəvi dəyərlərə malik olan Azərbaycan xalqı kimliyini tarixi hadisələrin gedişində təsdiqləyib. 30 ilə yaxın işğal altında olan torpaqlarımızın azad olunması Azərbaycanın mübarizələrlə dolu həyatında mücadilə apararaq azadlıq eşqini reallaşdıran xalq olduğunu dünyaya mesaj olaraq çatdırdı.*

# Şuşa – İslam dünyasına açılan PƏNCƏRƏ!

Bütün aparıcı beynəlxalq təşkilatların Azərbaycanın ərazi bütövlüyünü tanımasına, dəstəkləməsinə, beynəlxalq tədbirlərdə və platformalarda həqiqətlərini çatdırmaq istiqamətində böyük işlər aparılmasına baxmayaraq, heç bir səmərəsi olmadı. Dövlətimizin başçısı tərəfindən təsdiqlənən mükəmməl hərbi strategiya və taktika 44 günlük Vətən müharibəsində döyüş meydanında Azərbaycan Ordusunun ”Dəmir Yumruq” əməliyyatını sürətlə və az itki ilə reallaşdırmağa imkan verdi. Döyüş meydanında əməli təsdiqini tapan ”Qarabağ Azərbaycandır və nida” həqiqəti milli birliyimizin, haqqın və ədalətin Zəfəri kimi tariximizə yazıldı. 2020-ci ilin 10 noyabr tarixində Ermənistan məcbur olub kapitulyasiya aktına imza atdı. 44 günlük Vətən müharibəsində Zəfər tariximizi yazaraq erməni işğalında olan torpaqlarını azad edən Azərbaycan yeni dövrünə qədəm qoyaraq məsafəsindən, qitəsindən asılı olmayaraq, hər bir kəsə böyüklüyünü, xalq-iqtidar birliyini, iqtisadi gücünü, əzmini təqdim edir. Dövlət başçısının rəhbərliyi ilə hərb meydanında azadlığı, müstəqilliyi yolunda mübarizə aparan, mücadilə edən Azərbaycan yeni reallıqlar yaradaraq işıqlı, daha uğurlu bir yola qədəm qoyub.

28 il həsrət qaldığımız qədim Şuşamıza yollar açılıb. Şuşanın başı üstünü alan qara buludlar səmtini dəyişib. Alınmaz qala, mədəniyyətimizin beşiyi Şuşanın al, əsrarəngiz bir libasda nəbzi böyük Zəfər atəşi ilə həmahəng döyünür. İllərlə həsrətdə qaldığımız və halından xəbər tuta bilmədiyimiz Qarabağın tacı yeni bir ruzigarını yaşayır. Sınmayan, əyilməyən məğrur Şuşa qapısından qovduğu düşmənə kimliyini sübut edərək, Şuşa dağlarından, Cıdır düzündən sezilən intizara son qoydu və buzlaşmış, donmuş nəfəsinə təbiətin rəngarəngliyi istilik gətirib. Artıq biz Şuşaya qayıtmışıq. Tarixi yaddaşı əsrlərin sorağı olan Şuşaya. O Şuşaya ki, daşlaşmış yaddaşında tariximiz, keçmişimiz yaşayır. Bu torpaqdan boy atan böyük sənətkarların sənət dünyasına şahidlik edən Şuşanın hər daşında, sənət məbədlərində səsi, böyük bir irsi daşlaşıb. İllərin qarı, yağışı o irsi yuyub apara bilməmişdir. Tarixdən bizə məlumdur ki, Azərbaycan xalq musiqisinin inkişafında və formalaşmasında Şuşa şəhərində yetişən xanəndə və musiqişünasların müstəsna xidmətləri olub. Qarabağ xanəndələri muğam sənətini daha da inkişaf etdirib, onu daha da zənginləşdiriblər. Şuşanın klassik xanəndələri bütün Qafqazda, Mərkəzi Asiyada, Yaxın və Orta Şərq ölkələrində məşhur olan böyük və möhtəşəm muğam ifaçılığı məktəbi yaradıblar.





Azərbaycanın ictimai-siyasi həyatının mühüm mərkəzlərindən biri olan Şuşanın tarixi zamanından oxuyuruq ki, XVIII əsrin ikinci yarısında Azərbaycanın tarixi, mədəni və strateji əhəmiyyətə malik şəhəri sayılan Şuşa özünün xalçası, ipəyi, parçası və çini qabları ilə dünya bazarları miqyasına çıxmış və bununla da böyük şöhrət qazanmışdı. Xalq əfsanəsinə görə isə bu yerlərin havası büllur kimi saf və şəfalı olduğu üçün onu ”Şuşa” adlandırmışlar. Deməli, bu büllur kimi saf məkandan hər şey aydın və şəffaf görünür, elə olduğu kimi.

Belə bir şəhərin əvvəlki görkəmini özünə qaytarması, eləcə də dünyanın ən gözəl şəhərlərindən birinə çevrilməsi üçün görülən sürətli işlər Şuşaya olan qayğının təzahürüdür. Dövlət başçısının məlum Sərəncamı ilə Şuşa şəhəri ölkənin Mədəniyyət paytaxtı elan edildi. Bu münasibət qədim şəhərin özəlliklərindən qaynaqlanır. Beləliklə, Şuşa azadlığının ilk dövrünə mədəniyyət paytaxtı kimi qədəm qoydu və bu yol onun beynəlxalq aləmdə tanınması üçün geniş imkanlar açmış oldu. Xurşidbanu Natəvanın, Üzeyir Hacıbəylinin, Bülbülün ermənilər tərəfindən güllələnmiş büstlərinin Şuşada yenidən əvvəlki yerlərinə qoyulması, mədəniyyət şəhərində vaxtilə keçirilən ”Xarıbülbül” festivalının bərpa olunması bu məkandan işıq sürəti ilə dünya ölkələrinə yayıldı. Dünyanın gözü şəhərin gözəlliyinə yönəldi. 2022-ci il dövlət başçısı tərəfindən Şuşanın bərpasının sürətləndirmək məqsədilə ”Şuşa ili” elan olundu. Diaspor Gənclərinin III Yay Düşərgəsinin iştirakçıları Şuşada olaraq tarixi Zəfərimizin təntənəsinin şahidi olmaqla yanaşı, Azərbaycanla bağlarını daha da möhkəmləndirmək, ölkəmizi uğurla təmsil etmək, yeni dostlar qazanmaq imkanı əldə etdilər. Şuşada Azərbaycan və Özbəkistan şairlərinin iştirakı ilə ”Məclisi Fəramuşan” şairlər məclisi keçirildi. Hər iki ölkənin mədəniyyət, ədəbiyyat nümayəndələrinin tarixi Şuşa şəhərində bir araya gəlməsi, dünyaya böyük mədəniyyətimiz, sənətimiz, qardaşlığımız və birliyimizi göstərmək və ədəbiyyat sahəsində gözəl əməkdaşlıq platformasını ortaya qoyması təqdirəlayiq hal kimi dəyərləndirildi.Şuşa şəhərinə qonaq gələnlər Bülbülün ev-muzeyi, Molla Pənah Vaqifin Məqbərəsi, Yuxarı Gövhər Ağa məscidi, Aşağı Gövhər Ağa məscidi, Qazançı kilsəsi, Şuşa qalası və Cıdır düzü, erməni separatçıları tərəfindən dağıdılmış Qarabağ xristian kilsələri ilə tanış olaraq yararsız hala salınan məkanlar haqqında təsəvvürlərinin daha da genişləndirmiş oldular. Şuşa dünyaya açıq qapıdır. Bu gün Şuşa dağları həsrətlə yaşadığı, acıdığı musiqimizə, sənət dünyamıza qovuşdu. Artıq hər kəs rahatlığa qovuşub. Dini-mədəniyyət abidələrimiz təmir bərpa olunur. Şuşa, ”Cıdır düzü”, ”İsa bulağı” həsrətində olduğu zamana sahibdir.

Sovet dövründə Ümummilli Lider Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi zamanda (1969-1982) Qarabağa çox böyük diqqət və qayğı göstərmiş, eləcə də erməni iddiaları hər zaman iflasa uğramışdı. Ümummilli Lider Heydər Əliyev bu istiqamətdə sistemli və məqsədyönlü şəkildə tədbirlərin həyata keçirilməsinə xüsusi diqqət ayırırdı. Qarabağ tarixini, mədəniyyətini, incəsənətini, iqtisadi inkişafını mükəmməl bilən Ulu Öndər Heydər Əliyev bu məsələyə çox həssaslıqla yanaşmışdır. Ermənilərin Azərbaycana qarşı başladığı hərbi təcavüz nəticəsində 1992-ci il mayın 8-də Şuşa şəhəri işğal edildi və şəhərdə xalqımızın tarixi-mədəni irsinin məhv edilməsi siyasəti həyata keçirildi. Şuşanın işğalı nəticəsində azərbaycanlıların tarixi izlərini silmək məqsədilə vandallar 600 yaxın tarixi memarlıq abidəsini yerləyeksan etmiş, Qarabağ dövlət tarix muzeyi, turist bazasını, Qafqazda yeganə Şərq musiqi alətləri fabrikini və s. dağıtmış, buradakı nadir sənət incilərini talamış və məhv etmişlər.Ümummilli Lider Heydər Əliyev onun Azərbaycan üçün müstəsna əhəmiyyətini yüksək qiymətləndirərək deyirdi: ”Şuşasız Qarabağ, Qarabağsız isə Azərbaycan yoxdur”. Bəli, tarix susmur danışır İşğaldan azad olunan Şuşada qısa zamanda həyata keçirilən yenidənqurma işləri nəticəsində şəhər dünyanın ən gözəl məkanları siyahısında öz layiqli yerini tutacağına şübhə yoxdur. Heydər Əliyev Fondu tərəfindən də bərpa layihələri həyata keçirilir. Bunların sırasına Mehmandarovların malikanə kompleksinin təmir və bərpası, dahi Azərbaycan şairi və ictimai xadim Molla Pənah Vaqifin muzey-məqbərə kompleksi, Vaqifin büstünün yenidən qurulması, görkəmli bəstəkar Üzeyir Hacıbəylinin heykəlinin Şuşada yenidən ucaldılması, Yuxarı Gövhər Ağa məscidinin yenidənqurma və bərpa işləri, Saatlı məscidinin və Milli Xalça Muzeyinin Şuşa filialının açılışları və s. Şuşanın yenidən qurulmasının təzahürüdür. Şuşa yaşayır və qaynar, yeni dövrü onun işıqlı gələcəyinin lap yaxında olduğundan xəbər verir.



Şuşa şəhəri 2023-cü il üçün ”Türk dünyasının mədəniyyət paytaxtı” seçildi. Əsrarəngiz, füsunkar təbiəti, nadir tarixi-memarlıq abidələri, zəngin irsi bu şəhərin ”Türk dünyasının mədəniyyət paytaxtı” elan olunmasında əsas faktorlardandır. Bu barədə qərar Beynəlxalq Türk Mədəniyyəti Təşkilatına (TÜRKSOY) üzv ölkələrin Mədəniyyət Nazirlərinin Daimi Şurasının Türkiyənin Bursa şəhərində keçirilən iclasında qəbul olunmuşdu. İl ərizində türk dünyasının mədəni tədbirləri keçirildi və bu hələ də davam etməkdədir. Şuşanın mədəni həyatının canlanmasına dəstək məqsədilə musiqi festivalları, poeziya günləri, çoxsaylı yerli və beynəlxalq mədəni tədbirlər keçirilib. Qarabağın tacı olan Şuşanın ”Türk dünyasının mədəniyyət paytaxtı” seçilməsi böyük həqiqətlərə söykənir. Şuşa şəhəri nəinki Azərbaycanın, türk dünyasının, eləcə də bütün dünyanın mədəniyyət paytaxtı elan olunmağa layiq olan şəhərdir. Zəngin və şanlı tarixi keçmişə malik olan Şuşa ətrafındakı qədim yaşayış yerləri, o cümlədən, məşhur Cıdır düzündəki Şuşa mağarası bu ərazinin Azərbaycanda ən qədim insan düşərgələrindən biri olduğunu sübut edir.

Türk dünyasının mədəniyyət paytaxtından estafet islam dünyasına ötürüldü. Belə ki, dövlət başçısının Şuşa şəhərinin 2024-cü il üçün ”İslam dünyasının mədəniyyət paytaxtı” elan edilməsi ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidenti Sərəncam imzaladı. Bildiyimiz kimi, 2023-cü il sentyabrın 25-də Qətər Dövlətinin paytaxtı Doha şəhərində keçirilən İslam Dünyası Mədəniyyət Nazirlərinin 12-ci Konfransında Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhəri 2024-cü il üçün ”İslam dünyasının mədəniyyət paytaxtı” elan edildi. Bu qərar islam mədəniyyətinin zənginliklərini dolğun təzahür etdirən Şuşaya xüsusi ehtiramın ifadəsidir və İslam dünyasının həmrəyliyinin yeni rəmzinə çevrilməklə qarşılıqlı əməkdaşlıq münasibətlərinin daha da genişləndirilməsində müstəsnadır. Tarixi keçmişi, dini. mədəni və mənəvi dəyərləri ilə islam dünyasının ayrılmaz hissəsi olan Azərbaycan töhfəsini verir. Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində işğal olunmuş torpaqlarında İslam dininə aid tarixi və mədəni irsin və ibadət ocaqlarının dağıdılıb və təhqir olunubdur. Bu gün Şuşaya gələcək hər kəs bu mövcud vəziyyəti bir daha görəcəkdir. Qısa bir zamanda cənnəti xatırladacaq Şuşa nəinki türk, islam dünyasının bütün bəşəriyyətin mədəniyyət paytaxtına çevriləcəkdir. Şuşamızda keçiriləcək tədbirlərdə iştirakçı olacaq hər bir kəs möcüzələr diyarı ilə xoş təəssüratlarla ayrılacaqlar.Şuşa şəhəri xalqımız üçün son dərəcə əziz, müqəddəs bir məkandır və bu şəhərə olan sevgi, bağlılıq hər bir azərbaycanlının mənəvi varlığının ayrılmaz parçasıdır.

Bu gün Azərbaycanın, türk və islam dünyasının mədəniyyət beşiyi qədim Şuşa yeni bir dövrünü yaşayır.

***Zümrüd BAYRAMOVA***

# Fikir, söz və məlumat azadlığı, plüralizmin inkişaf etdirilməsi prioritetdir









***Fikir, söz və məlumat azadlığı hər hansı bir cəmiyyətdə demokratik mexanizmlərin mövcudluğunu, işləkliyini təsdiq edən əsas şərtlərdəndir. Təsadüfi deyil ki, sivil cəmiyyətin atributu da elə məhz fikir və məlumat azadlığı hesab olunur, çünki bu azadlıqlar dövlətlərin, xalqların hərtərəfli inkişafında, cəmiyyətlərin formalaşmasında müstəsna rola malikdir. Fikir, soz, məlumat azadlığına, azad mətbuatın inkişafına ölkəmizdə xüsusi diqqətin ayrılması, eləcə də göstərilən qayğı bu baxımdan başadüşüləndir.***

İnsan hüquq və azadlıqlarının müdafiəsinə, fikir, söz və məlumat azadlığının təmin edilməsinə ölkəmizdə göstərilən qayğı və diqqət cəmiyyətimiz tərəfindən müsbət qarşılanır. Heç də sirr deyil ki, Azərbaycan söz azadlığının qorunduğu, mətbuat azadlığı prinsipinə hörmətlə yanaşılan ölkələrdən hesab edilir və bu, bizim hər birimiz üçün qürurvericidir. Həm də qürurverici olan odur ki, fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi ölkəmizdə hər zaman olduğu kimi, yenə də ön planda durur və prioritet hesab edilir. Məhz elə buna görə də vətənimiz Azərbaycanda fikir, söz, məlumar azadlığı, azad mətbuat, plüralizm dinamik şəkildə inkişaf etməkdədir və bu inkişaf dinamikası ölkəmizdə demokratiyanın bundan sonra da, gələcəkdə də mövcudluğuna əsaslı zəmin yaradır. Ölkəmizdə söz, fikir, məlumat azadlığının hansı səviyyədə olduğunu müəyyən etmək üçün azad şəkildə fəaliyyət göstərən televiziya və radioların, qəzet və jurnalların, informasiya agentliklərinin maneəsiz, senzurasız çalışmasına diqqət etmək kifayət edir.

Ölkəmizdə söz, ifadə azadlığının olduğunu birmənalı şəkildə təsdiq edən məqamlardan biri kimi sosial şəbəkələrin mövcudluğunu, insanların həmin şəbəkələrdə öz fikirlərini azad şəkildə paylaşmasını göstərə bilərik. Cəmiyyətimizdə müşahidə edilən hadisələrə vətəndaşlarmızın öz münasibətini məhz sosial şəbəkələr vasitəsilə heç bir maneə olmadan bildirdiyinin hər birimiz şahidiyik. Xatırladaq ki, əgər vətəndaşlar öz fikirlərini sərbəst şəkildə ifadə edə bilirlərsə, buna da heç bir qadağa qoyulmursa, maneələr də yoxdursa, bu elə ifadə azadlığının olduğunu təsdiq edir və ölkəmizdə bu azadlığın təmin olunduğu göz önündədir. Sözsüz ki, sosial şəbələrin mövcudluğundan sui istifadə halları, etik normalara riayət edilməməsi, təhqir hallarına və uyğunsuz yanaşmalara qol verilməsi qəbuledilməzdir. Bu baxımdan da insanların həmin şəbəkələrdən istifadəsinə hansısa maneə olmamasına baxmayaraq, burada xaosun da hökm sürməsinə imkan verilmir və xoşagəlməz hallar qanunla tənzimlənir.



Söz, fikir, məlumat azadlığı təmin olunmadan, yəni informasiya cəmiyyətinin fundomental prinsipi təmin olunmadan demokratiyadan da, plüralizmdən də, azad cəmiyyətin tərəqqisindən də danışmaq mümkün deyil. Bütün bunların təminatı üçün isə ilk növbədə əlbəttə ki, həmin sahəni tənzimləyən qanunların olması və dövlət tərəfindən qorunması gərəkir, hansı ki, ölkəmizdə bu sahədə ilkin təminat məhz konstituasiyamıza əsaslanır. Təsadüfi deyil ki, Azərbaycanda medianın inkişafı, söz, fikir, məlumat azadlığının təminatı üçün qanunvericilik normaları da qəbul edilib, institusional mexanizmlər də, bu istiqamətdə inkişafa təkan verən qurumlar belə formalaşdırılıb və bu baxımdan gələcək üçün də nikbin proqnozlar verilməsi üçün məntiqi əsas var.

Xüsusilə vurğulamaq yerinə düşərdi ki, fikir, söz, eləcə də məlumat azadlığı dövlətə inamı formalaşdırır və bununla da vahid mövqedən çıxış edilməsinə əsaslı zəmin yaradır. Son dövrlər ölkə mediasının milli maraqlar kontekstində vahid mövqe sərgiləməsi, dövlətin mənafeyi naminə birlik nümayiş etdirməsi məlumat azadlığının olması ilə yanaşı, dövlətə olan inamın da hansısa səviyyədə olduğunu nümayiş etdirir. Dövlətimizin milli maraqları üstün tutması medianın da milli maraqlardan, vahid mövqedən çıxış etməsi üçün daha bir zəmin yaratmış olur və cəmiyyətimiz bunu müşahidə etməkdədir. Mediamızın belə bir vahid mövqedən, milli maraqlardan çıxış etməsini 44 günlük müharibə zamanı da, qələbə çaldıqdan, Zəfər əldə edikdən sonra da, post-münaqişə dövründə də müşahidə etdik və ən sevindirici də elə məhz bu məqamdır.

Sözsüz ki, hər hansı bir cəmiyyətdə plüralizmin olması, inkişafı üçün ilk növbədə söz, fikir, məlumat azadlığının olması əsas şərtdir. Nəzərə alsaq ki, bizim ölkəmizdə, cəmiyyətimizdə həmin azadlıqlar təmin olunub, deməli, plüralizmin inkişafı üçün ölkəmizdə hərhansı bir maneə yoxdur, əksinə, bunun üçün münbit şərait var. Məhz elə bu münbit şəraitin fonunda da ölkəmizdə siyasi plüralizmin inkişafı göz önündədir. Hazırda ölkəmizdə çoxlu sayda partiyaların olması təsdiq edir ki, plüralizm elə məhz bizim ölkəmizdədir və bu mənada da ölkəmiz digərlər ölkələrə nümunə hesab olunur. Məsələn, özlərini demokratiyanın beşiyi adlandıran ən inkişaf etmiş ölkələrin bir çoxunda cəmir bir və ya iki partiyanın olması hər birimizə bəllidir. Amma Azərbaycanda çoxlu sayda partiya var və bu partiyalara nəinki maneə yoxdur, hətta dövlət dəstəyi belə göstərilir. Təkcə dövlət dəstəyi ilə kifayətlənilmədiyi, siyasi partiyalar haqqında qanunvericiliyin də olması, həmin qanunvericiliyin mütəmadi şəkildə yenilənməsi, daha mükəmməl şəkildə tərtib edilməsi ölkəmizdə plüralizmə, onun inkişafına nə dərəcədə önəm verildiyini bir daha təsdiq edir. 2022-ci ilin oktyabr ayında Milli Məclisdə "Siyasi partiyalar haqqında" yeni qanun layihəsinin ictimai müzakirəsinin keçirilməsi, müzakirələrdə parlamentdə təmsil olunan və parlamentdən kənar siyasi partiyaların nümayəndələrinin iştirak etməsi, siyasi partiyaların maliyyələşdirilməsi ilə bağlı maddənin dəyişməsi, siyasi partiya anlayışı, partiyaların təsis edilməsi və digər məsələlərin qanunvericilikdə konkret şəkildə göstərilməsi demokratik cəmiyyət üçün xarakterik, xas olan plüralizmin ölkəmizdə olduğunu və inkişafını göstərir.

Sadalananlar onu deməyə əsas verir ki, söz, fikir, məlumat azadlıqlarının, eləcə də plüralizmin bundan sonra da inkişafı barədə nikbin proqnozlar vermək olar. Ələlxüsus da ona görə nikbin proqnozlar vermək olar ki, fikir, ifadə, məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi dövlət rəhbərinin daim diqqət mərkəzindədir. Bu məqam isə cəmiyyətimiz, ələlxüsus da media nümayəndələri tərəfindən yüksək qiymətləndirilir. Məhz bu dəyərə istinadı edərək, cəsarətlə deyə bilərik ki, Azərbaycanın bundan sonra da söz, fikir, məlumat azadlığının təmantında lider dövlətlərdən biri kimi davamlı şəkildə qəbul edilməsinə ümid etməyə dəyər.

***İnam Hacıyev***





# Alo, ustadır?.. Gəl...

***İndi hər birimiz evdə yaranan hansısa problem üçün usta axtarır, ya kiminsə tövsiyəsi ilə, ya sosial şəbəkələrdən taparaq ona zəng edir, ünvanı bildirir, yolunu gözləyirik. Ustalar da çox böyük həvəslə gəlir. Biz evimizdə təmirə ehtiyac olan hər hansı əşyanı və yaxud da yeri həmin ustanın ixtiyarına buraxırıq. Lakin bilmirik ki, çağırdığımız usta həmin əşyanı təmir edəcək qədər potensiala, bacarığa malikdir, ya yox. Hələ üstəlik ustanın hansı xarakterə malik olduğunu da bilmirik. Sanki usta ilə bağlı məsələni Allahın ümidinə buraxıb öz işimizin ardınca gedirik. Ustaya həm evimizi, həm əşyamızı etibar edirik. Lakin bu, nə dərəcədə düzdür, gəlin anlamağa çalışaq...***



## Vaxt var idi ki...

Bəli, vaxt var idi ki, təsadüfi halda evə usta çağırılardı. Buna orta nəslin nümayəndələrinin hər biri şahiddir. Evdə bir əşya, məsələn, ütü, tozsoran, radio, maqnitofonda nasazlıq yaranan kimi ya atamız, ya qardaşımız, ya da özümüz sökük qoymuşuq qarşımıza, təmir edib qoymuşuq yerinə. Və yaxud da evdə su kranını dəyişmək, hara isə elektrik xətti çəkmək, uçulub-sökülən bir yeri əvvəlki vəziyyətinə gətirmək üçün evə usta çağırıldığına təsadüf etməmişik. Yenə də evin kişisi qolunu çırmayıb, həmin problemləri aradan qaldırıb. Kişilər yeri gələndə televizor, telefon, radio, maqnitofon ustası, yeri gələndə bənna, dülgər olublar. Gördükləri iş də keyfiyyəti ilə göz qarşısında olub. Onların təmir etdiyi əşyalar və yaxud da düzəltdikləri qapı-pəncərə, hördükləri divar, çəkdikləri suvaq, vurduqları dam örtüyü heç də bu sahədə illər uzunu məşğul olan ustaların gördüyü işdən geri qalmayıb. Hələ üstəlik çox halda onların etdiyindən də keyfiyyətli, gözəl olub.

Bəzən televizor, soyuducu kimi əşyaların elə problemi yaranardı ki, artıq bunu aradan qaldırmağa gücümüz çatmayanda, usta çağırılardı. Bu zaman isə evin kişisi usta işini bitirənədək onun yanında dayanar, yeri gələndə onunla birlikdə işləyər, sonra ustanı yola salıb öz işinin ardınca gedərdi.

## Müasir dövrümüzdə necə?..

İndi dəyişməyən heç nə qalmayıb. Biz bir-birindən dəyərli dəyərlərimizi unuda-unuda, keçmişdə qoyub bu günlərə gəlmişik. Haqqında söhbət açdığımız usta məsələsi də dünəndən fərqli şəkildədir. Bunun bir sıra səbəbləri var ki, aşağıda onlardan da danışacağıq. Lakin hələlik ən çox görünən tərəfə nəzər salaq. Baxaq görək, evimizə çağırdığımız usta ən birinci həqiqətən də ustadırmı? Onun əxlaqı, tərbiyəsi nə səviyyədədir? Bəlkə elə dələduzdur. Hansı ki, son illər belə ustalarla qarşılaşanların sayı onlarladır.

Evimiz hər kəsin ayaq basa bilməyəcəyi məbəddir. Bu səbəbdən də tanımadığımız, xarakterinə bələd olmadığımız hər ustaya qapımızı açmamalıyıq. Evimizdə xanımlar, qızlar, gəlinlər var. Hər yoldan keçən usta evimizə gələ bilməz. Bu səbəbdən də heç olmasa, tanıdığımız ustalara müraciət etməyimiz vacibdir.

Digər tərəfdən isə indi əksər ustalar var ki, onlar yalnız dələduzluqla məşğul olur. Bu gün çağırılan evdə əşya təmirinə gəlir, sabah isə həmin evə oğurluq məqsədilə soxulur. Ötən yay yaxın tanışlardan birinin başına usta tərəfindən gətirilən hadisəni söhbətin bu yerində xatırlamaq yerinə düşər. Deməli, hadisə belə olub ki, Suraxanı qəsəbəsində yaşayan ailə evinin həyətini təmir etmək üçün bir usta ilə danışır. Usta da yanında bir fəhlə ilə həmin evə gəlir. İş prosesi bir neçə gün çəkir. Usta və fəhlə burada onlara tapşırılan işi görür, hələ üstəlik evin xanımı onlara çay-çörək də verir. Nəhayət, onlar işlərini başa vurur, əmək haqlarını da alıb evdən ayrılırlar. Bir neçə gündən sonra isə gecə yarısı evdə oğurluq baş verir, ailənin hələ kreditini ödəyib qurtarmadığı televizor yoxa çıxır. Ailə aid orqanlara şikayət edir, axtarışlar başlanılır. Lakin ilk şübhə doğuran həmi usta və fəhlə olur. Çünki onlar əllərini yumaq və sanitar qovşaqdan istifadə üçün evə giribmiş. Və digər şübhə yaradan variant olmadığına görə ailədə belə bir fikir formalaşır ki, evdən oğurluq həmin usta və fəhlə ilə bağlıdır. Çünki onlar bir neçə gün ərzində evin salonunun tor örtüklü pəncərəsinin gücə-gündüz açıq saxlandığını görmüşdülər. Belə isə ağlagələn ilk variant da elə onlarla bağlı oldu. Hadisənin çözümü müvafiq orqanların işi olduğu üçün həmin məsələyə müdaxilə etməyimiz məqsədəuyğun olmaz. Lakin görünən odur ki, hər ustaya həyət, ev etibar edilə bilməz, hər ustanın evə daxil olmasına razı verməK olmaz.







Bu cür onlarla misal çəkmək olar. Usta adı ilə evə gəlib evdən oğurluq edən, evin xanımı ilə münasibət yaratmaq istəyən ustalar azmı olub? Usta adı gəlib televizorun, soyuducunun, kondisionerin saz hissəsini çıxarıb, yerinə nasazını qoyanlar necə, az olubmu? O gedəndən bir neçə gün sonra həmin əşyalar işləməyib. Bu dəfə isə telefonlarına zəng çatmayıb, sanki qeybə çəkiliblər. Və yaxud da ustanın hər hansı bir hissə almaq üçün pulu götürüb yoxa çıxması halı, azmı olub? Əl haqqını əvvəldən alıb işini yarımçıq qoyub aradan itən ustalar haqqında da az məlumata malik deyilik.

Bütün bunları görə-görə, bilə-bilə, lakin yenə də tanımadığımız, sadəcə sosial şəbəkələr vasitəsilə tanış olduğumuz ustalara evimizi, əşyamızı etibar edirik. Aldadılmaqdan sanki doymuruq.

Bax elə söhbətin bu yerində belə bir sual çıxır meydana ki, nə üçün adi bir iş üçün evə usta çağırırıq? Axı bəzi işləri özümüz də edə bilərik. Bütün hallarda evə usta çağırılmamalıdır ki. Bu, həm maddi, həm də bayaqdan bəri söylədiyimiz mənəvi itkilərə səbəb olur. Bu yazıda hələlik kişilərə məxsus işlərdən danışdığımıza görə qadınlarla bağlı eyni məsələyə digər bir yazıda toxunmağı planlaşdırırıq.

Bir kişi nə üçün su kranını, sıradan çıxmış elektrik lampasını təmir edə, dəyişə bilmir ki, evə usta çağırır? Və yaxud da istənilən bir cihazın, əşyanın təmiri olsun, axı bu işləri həmişə atamızın, qardaşımızın həll etdiyini görmüşük. Elə əsas məsələ də buradadır. Nə üçün vaxtilə kişilər bu işləri görə bilirdi, indi isə bunları bacaracaq barmaq sayı kişilər var. Həqiqətən də maraqlı sualdır:

## Bəs nə üçün dünən elə idik, bu gün belə?..

Bu sualın elə bir cavabı var ki, bir tərəfi, həm də əsas tərəfi bugünkü təhsil sistemi ilə birbaşa bağlıdır. Orta nəslin nümayəndələri yaxşı xatırlayar, vaxtilə məktəblərimizin hər birində əmək təlimi dərsi tədris olunurdu. Məktəblərdə emalatxanalar vardı. Əmək təlimi dərsini sadəcə sinifdə oturub kitabda yazılanları oxumaqla mənimsəmirdik, həmin emalatxanalarda o nəslə yuxarıda sadaladığımız bütün işlər öyrədilirdi. Həm də elə bir səviyyədə öyrədilirdi ki, məktəbi bitirən hər bir şəxs istər qız, istər oğlan müəllim, həkim, mühəndis, mədəniyyət işçisi, alim, professor olmaqla yanaşı, həm də evində usta olurdu. Bütün problemləri həll etmək bacarığına malik olurdu. Elə bu səbəbdən də o vaxtlar ustaların da sayı az idi, evə gələn yad adamların da.

Hər kəs, necə deyərlər, öz evinin həm ağası, həm nökəri idi. Lakin təhsil sistemi yeniləndikcə, əmək təlimi dərsləri bir kənara tullandı. Yeni təmir olunan məktəblərdə artıq əmək təlimi sinifləri, emalatxanalar yer almadı. Əmək hazırlığı dərsləri yalnız ibtidai siniflərdə tədris olundu. Yuxarı siniflərdə yəqin ki, gərəksiz olduğu nəzərə alınaraq dərs proqramından çıxarıldı.

Hansı ki, məktəb emalatxanalarda müxtəlif fabrik və zavodlarda işlədilən avadanlıqlar vasitəsilə istehsal prosesini öyrənə bilirdik. Müxtəlif biliklərə yiyələnməklə, qurğuların sökülüb-yığılması ilə məşğul olmaqla, əməlli-başlı ustalara çevrilirdik. Orta məktəbi bitirdikdən sonra onlarla sinif yoldaşımız dülgər, xarrat, bənna kimi fəaliyyətə başlayırdı. Qızlar məktəbdə öyrəndiyi tikiş işləri ilə gələcəyin ən yaxşı dərzisi kimi yetişirdi.

Lakin yeni təhsil sistemi bunları elə ötən illərin arxivinə verdi. Bu səbəbdən də son dövrlər məktəbi bitirib ailə quranlar evdə bir su kranını, elektrik lampasını dəyişə bilmir, hər hansı bir təmirdən başı çıxmır, bir problem yaranan kimi məcburən telefonu əlinə alıb "Alo, ustadır? Gəl",- deyir və elə bununla da bütün problemlərin yaranmasına şərait yaratmış olur.

Bu gün ətrafımızda yüzlərlə belə kişi var ki, əlindən bir iş gəlmir. Hər işdən ötrü usta çağırır, pul xərcləyir, ailə büdcəsinə zərər vurur, yeri gələndə də yuxarıda sadaladığımız problemlə üzləşir, həftələrlə, aylarla bu problemin çözümünü həll edə bilmir.

## Çıxış yolu nədir?

Çıxış yolu təhsil sistemində daha bir yeniliyə nail olmaq, məktəblərdə əmək hazırlığı, təlimi dərslərini əvvəlki vəziyyətə gətirməkdən ibarət ola bilər. Bu gün məktəblərdə yeni texnologiyaların öyrədilməsi, istedadlı və yaradıcı şagirdlərin üzə çıxarılması, onların ixtira qabiliyyətinin aşkar edilməsi üçün STEAM sistemi tətbiq olunur, bunun üçün yaradılan siniflər lazımi avadanlıqlarla təchiz edilir. Bu, çox təqdir olunacaq bir məsələdir. Lakin gəlin görək adi məişət probleminin həlli öyrədilməyən, əmək təlimi haqında müəyyən biliyi olmayan uşaq birdən-birə bu texnoloji yeniliklərə yiyələnə bilərmi? Odur ki, məktəblərdə əmək hazırlığına yenidən baxılmalıdır.

Əks təqdirdə gənc nəsil və bundan sonrakı nəsil də kiçik bir problemlə üzləşən kimi telefonu əlinə alıb evinə usta çağıracaq. Usta da ki, nə usta. Gəlib öhdəsinə götürdüyü işi həll edəcək, edə bilməyəcək, bunu zaman göstərəcək.

Məsələnin digər bir tərəfi isə insanların aldanmaması üçün ustanın əlində onun ustalığını təsdiq edən bir sənədin olmasının vacibliyidir. Ölkəmizdə texniki-peşə məktəbləri fəaliyyət göstərir. Heç olmasa, ustalar bu məktəblərdə təhsil alıb, həm bir işi lazımınca öyrənməli, həm də diplom əldə etməlidir ki, sabahkı məsuliyyətlərinin nə olduğunu dərk edə bilsinlər. Belə olarsa, evlərə çağırılan ustalardan da bu sənəd tələb olunar və nəticədə insanlar min bir fırıldağın əziyyətini yaşamazlar.

Hələlik isə bu usta məsələsində bir az ayıq-sayıq olaq. O vaxtadək ki, onların bizi aldatmaması barədə tədbir həyata keçirilər. Ümumilikdə isə yuxarıda sadaladıqlarımızın hər biri yenidən həyata vəsiqə alarsa, bəlkə sabahkı kişilər də dünənkilər kimi evinin bəzi işini özü görə bilər, hər an usta çağırmağa ehtiyac olmaz.

***Mətanət Məmmədova***

# Sosial qayğı siyasəti



Azərbaycanın ərazi bütövlüyü, torpaqlarımızın işğaldan azad edilməsi uğrunda şücaət göstərən qazilərə, bu yolda canını fəda edən qəhrəmanlarımıza, şəhid ailələrinə dövlətimiz tərəfindən sosial qayğılarının həll edilməsi üçün ardıcıl olaraq zəruri tədbirlər görülür. Onlar üçün qanunvericilikdə nəzərdə tutulmuş imtiyaz və müavinətlərin icrası təmin olunur, bu istiqamətdə yeni sosial dəstək proqramları həyata keçirilir. Dövlət başçısı tərəfindən bu istiqamətdə imzalanan fərman və sərəncamlar, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın bu şəxslərə mərhəmətli qayğısı hər bir ölkə vətəndaşı tərəfindən təqdirəlayiq hal kimi yüksək qiymətləndirilir. Ölkəmizdə şəhidlərə və onların ailələrinə, əlillərə olan münasibət dövlətimizin məqsədyönlü, düşünülmüş və ardıcıl siyasətidir. Bu dövlət başçısının siyasətinin əsasında ölkənin hər bir vətəndaşına münasibətdə ədalət və humanizm prinsiplərinin dayandığını bir daha təsdiqləyir.

Ölkəmizin ərazi bütövlüyü, müstəqilliyi uğrunda döyüşlərdə şəhid olmuş insanların ailələrinin, bu döyüşlərdə əlil olmuş şəxslərin həyat şəraitlərinin yaxşılaşdırılması istiqamətində aparılan işlər davam edir. Şəhid ailələrinə və müharibə əlillərinə ayrılan diqqətin nəticəsidir ki, bu gün onların sosial təminatı istiqamətində ardıcıl işlər görülür.

Azərbaycan Ordusunun möhtəşəm Zəfər əldə etdiyi 44 günlük Vətən müharibəsindən sonra şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olanların mənzil və fərdi evlə təminatı proqramı 5 dəfə genişlənib. Dövlət başçısının tapşırığı ilə bu il ən azı 1500 mənzil və fərdi evin verilməsi işləri aparılır. Hazırda təqdim edilən mənzillər də daxil olmaqla şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olanlara bu il artıq 1100, postmüharibə dövründə 5600, ümumilikdə ötən dövrdə 14 400 mənzil və fərdi ev verilib. Ölkə Prezidentinin Sərəncamı ilə 2021-ci ilin əvvəlindən İkinci Qarabağ müharibəsi şəhidlərinin ailələri və həmin müharibə ilə əlaqədar əlilliyi olanlar da mənzillə təmin olunur.

Həssas əhali qruplarından olan şəxslərin, xüsusilə şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan vətəndaşlar daim diqqət və qayğı ilə əhatə olunur.






44 günlük Vətən müharibəsində yaralanaraq əlilliyi müəyyən olunmuş hərbçilərimiz də avtomobillə təmin edilirlər. Müharibə ilə əlaqədar əlilliyi olanlara postmüharibə dövründə 324, ümumən ötən dövrdə 7500-dən çox avtomobil verilib. Həyata keçirilmiş uğurlu lokal antiterror tədbirləri zamanı şəhidlik zirvəsinə ucalmış hərbçilərimizin ailələrinin, habelə həmin tədbirlər zamanı yaralanmış hərbçilərimizin də sosial dəstəklə təminatının hazırda əsas fəaliyyət istiqamətlərindən biridir və bu istiqamətdə müvafiq işlər aparılır.

"Şəhid övladlarının anaları ilə birgə səyahət və təlim proqramı", "Qəhrəmanlarımız üçün yaşıl işıq" sosial-psixoloji dəstək layihəsi də həyata keçirilir. Vətən müharibəsi ilə əlaqədar əlilliyi olan 50-dək şəxs peşə-əmək reabilitasiyasına cəlb edilib. Peşə Əmək Reabilitasiyası Mərkəzində onlar üçün müxtəlif peşələr üzrə kurslar təşkil olunub. Bir qrupu artıq kursları bitirərək müvafiq peşə şəhadətnamələri alıblar. Digərlərinin peşə-reabilitasiya kursları davam edir. Peşə kursu keçən müharibə ilə əlaqədar əlilliyi olan şəxslərdən 7 nəfəri qardaş Türkiyədə əlilliyi olan şəxslər üçün təşkil olunan peşə dərnəklərində təcrübə kurslarında da iştirak ediblər. Müharibə ilə əlaqədar əlilliyi olan daha 2 müdavimin də gələn ay Türkiyəyə təcrübə kursuna göndərilməsi nəzərdə tutulub.

Bütün bunlarla yanaşı, şəhid ailələri üzvləri və müharibə veteranları olan 103 min şəxsə 115 min aylıq sosial ödəniş təyin olunub, 3 891 şəxsə sığorta ödənişi edilib. 1997-ci il avqustun 2-dək hərbi xidmətdə aldığı xəsarətlə bağlı əlilliyi olan 17 234 şəxs üzrə birdəfəlik ödəmə verilib. Şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olanlara yönələn sosial ödənişlər hər il artırılıb, müharibə veteranlarına aylıq təqaüd təyin edilib. Şəhid ailələri üzvləri, müharibə iştirakçıları olan 11 min nəfərə 49,5 min sosial-psixoloji dəstək və reabilitasiya xidməti göstərilib.

Statistik rəqəmlərə nəzər saldıqca dövlətimiz tərəfindən bu kateqoriyadan olan insanlara ayrılan diqqət və qayğını görmüş oluruq. Şəhid ailələri üzvləri və müharibə iştirakçıları olan 19,6 min şəxsin məşğulluğu təmin edilib, o cümlədən 10,1 min şəxs özünüməşğulluq proqramına cəlb olunub. Vahid əlaqələndirmə mərkəzlərində həmin kateqoriyalara aid 93,3 min şəxsə xidmətlər göstərilib və s.

Postmüharibə dövründə qeyd olunan sosial dəstək paketi 124 min şəxsi əhatə edərək, onlara dəstək yönümlü 304 min xidmət göstərilib. 44 günlük Vətən müharibəsində yaralanaraq əzalarını itirmiş qazinin, müharibə əlilinin yüksək texnologiyalı son nəsil protezlərlə təminatı proqramı uğurla icra olunub. Müharibə ilə əlaqədar əlilliyi olan 1990 şəxs 43,1 min reabilitasiya vasitəsi, o cümlədən 439 şəxs 458 ədəd yüksək texnologiyalı müasir protezlə təmin olunub. Bütün bunlar bir daha təsdiqləyir ki, respublikamızın müstəqilliyi, ərazi bütövlüyü uğrunda mübarizədə yenilməz rəşadət və misilsiz vətənpərvərlik nümunəsi göstərən vətən oğullarımıza və onların ailələrində dövlət qayğısı və diqqət davamlıdır.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Azərbaycan XİN: Türkiyənin həm sevinc, həm də kədərində daim yanındayıq



Azərbaycan Xarici İşlər Nazirliyi (XİN) Türkiyədəki zəlzələnin birinci ildönümü ilə bağlı başsağlığı verib. Bu barədə XİN-in "X" səhifəsində paylaşım edilib. "Qardaş Türkiyədə böyük insan tələfatı və dağıntılara səbəb olan zəlzələnin birinci ildönümündə faciə qurbanlarının ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı veririk. "Bir millət, iki dövlət" kəlamı ilə bağlı olduğumuz Türkiyənin həm sevinc, həm də kədərində daim yanındayıq", - paylaşımda qeyd edilir.

# Qazaxıstan Azərbaycan vasitəsilə neft ixracını 3 milyon tona çatdıracaq



***Qarşıdakı illərdə Qazaxıstan Transxəzər marşrutu ilə Azərbaycan vasitəsilə neft ixracının həcmini 3 milyon tona çatdıracaq. "İnterfaks" xəbər verir ki, ötən il Qazaxıstan Azərbaycan üzərindən dünya bazarına 1 milyon ton neft ixrac edib. Cari ildə isə Qazaxıstan Transxəzər marşrutu ilə 1,5 milyon ton neft ixrac etməyi planlaşdırır ki, gələcək illərdə ixracın həcmini 3 milyon tona çatdırsın.***

Qeyd edək ki, 2022-ci ildə Qazaxıstan prezidenti Kasım Jomart Tokayev Transxəzər marşrutu ilə neft ixracının həcminin artırılması barədə tapşırıq vermişdi. Həmin il Qazaxıstanın "KazMunayQaz" və Azərbaycan SOCAR şirkətləri arasında "Tengiz" yatağından hasil olunan neftin Bakı-Tbilisi-Ceyhan qaz boru kəməri ilə nəql olunması haqqında müqavilə imzalanıb.

# İrandan yan keçən Amerika raketləri

## ABŞ İraq, Suriya və Yəməndə Tehrana hücum edir



BMT Təhlükəsizlik Şurası Rusiyanın təşəbbüsü ilə ABŞ-ın İraq və Suriyada iranpərəst qruplara qarşı bir sıra hava hücumları ilə əlaqədar təcili iclas keçirəcək. Çünki Yəməndə husilərin mövqelərinə yeni hücumların da daxil olduğu bombardman Yaxın Şərqdə daha da eskalasiyaya və anti-Amerika əhval-ruhiyyəsinin artmasına səbəb olub. Hava hücumlarının yönəldiyi İranın özündə də ABŞ-ın hərəkətləri "strateji səhv" adlandırılıb. Bayden administrasiyasının hərəkətləri onun respublikaçı əleyhdarları tərəfindən də kəskin tənqid edilib və onlar üçüncü ölkələrdə onunla əlaqəli birləşmələrə deyil, İranın özünə qarşı zərbələrin endirilməsini tələb ediblər.

Rusiya Federasiyasının BMT-dəki daimi nümayəndəsinin birinci müavini Dmitri Polyanski "ABŞ-ın İraq və Suriyaya zərbələrinin sülh və təhlükəsizliyə yaratdığı təhdidlərlə əlaqədar" BMT Təhlükəsizlik Şurasının təcili iclasının keçiriləcəyini açıqlayıb. Moskvanın tələbi ilə BMT Təhlükəsizlik Şurasına sədrlik edən Qayana iclasını Nyu-York vaxtı ilə bazar ertəsi 16:00-a (Bakı vaxtı ilə çərşənbə axşamı 01:00) təyin edib.

BMT Təhlükəsizlik Şurasındakı müzakirə ərəfəsində Rusiya Xarici İşlər Nazirliyi sərt bəyanatla çıxış edib. "Biz suveren dövlətlərə qarşı ABŞ-Britaniya təcavüzünün bu yeni açıq-aşkar aktını qətiyyətlə pisləyirik. Biz yaranmış vəziyyəti BMT Təhlükəsizlik Şurası vasitəsilə təcili nəzərdən keçirilməsi və dəhşətli nəticələri olan vəziyyətə sürükləyə bilər". İraq hökumətinin sözçüsü Bassem əl-Avadi də Amerikanın zərbələrini şərh edərək, "İraq təhlükəsizlik qüvvələrinin Akaşat və Əl-Qaim bölgələrində, eləcə də mülki əhalinin yaşadığı qonşu yaşayış məntəqələrindəki yerlərinin bombalandığına" işarə edib. Onun sözlərinə görə, İraqdakı beynəlxalq koalisiya "ona verilən tapşırıqlar- zərbələrdən bir neçə saat sonra ABŞ hərbi hava qüvvələri Böyük Britaniya ilə birlikdə Yəməndə son həftələrdə üçüncü əməliyyatını həyata keçirib.

Pentaqonun bəyanatında qeyd olunub ki, Amerika və Britaniya müttəfiqləri "Avstraliya, Bəhreyn, Kanada, Danimarka, Hollandiya və Yeni Zelandiyanın dəstəyi ilə Yəməndə 13 yerdə 36 husi hədəfinə mütə- Nizamnaməsinə məhəl qoymamaqda ittiham edib.

Bu arada, ABŞ administrasiyasının strateji hədəfi elan edilən İranın cilovlanması idi, onun əmri ilə daha üç ölkə bombalanıb. Bu, prezident Baydenin respublikaçı əleyhdarları arasında açıq-aşkar məyusluğa səbəb oldu. İordaniyadakı Amerika bazasına hücumdan dərhal sonra senator Lindsey Graham Ağ Evi "İrana sərt zərbə endirməyə" çağırıb. Onu bir çox respublikaçı konqresmenlər, həmçinin Tramp administrasiyasında keçmiş milli təhlükəsizlik müşaviri Con Bolton dəstəkləyib, o, vaxtilə İranın özünün cəzalandırılmasının əsas ideoloqu olub.

Ağ Evin hərəkətlərindən narazılığını bildirən ABŞ Nümayəndələr Palatasının sədri Mayk Conson İordaniyadakı ABŞ hərbi bazasına qarşı hücuma qarşı gözlənilən cavab barədə bir həftə ərzində dünyanı məlumatlandıran prezident Baydeni tənqid edib. Consonun fikrincə, bu, Vaşinqtonun Yaxın Şərqdəki təhlükəsizliyinə təhdidlərə cavab vermək imkanlarını azaldıb. "Təəssüf ki, administrasiya tam bir həftə gözlədi və cavabın necə olacağını dünyaya, o cümlədən İrana teleqraf etdi. "İctimai əllərin sıxışdırılması və həddindən artıq siqnal verilməsi bizim son aylarda davam edən hücumlar seriyasına qəti son vermək qabiliyyətimizi azaldır", - Mayk Conson bildirib.

Onun sözlərinə görə, prezident Baydenin İranı "əhliləşdirmək" strategiyasının "beynəlxalq ictimaiyyət və regional sabitlik üçün fəlakətli" olduğunu sübut etmə-





nə çalışırıq", - Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova insidentlə bağlı bildirib və əlavə edib ki, hava hücumları münaqişəni daha da qızışdırmaq üçün xüsusi olaraq hazırlanmışdır. Demək olar ki, fasiləsiz son vaxtlar İraq və Suriyada guya iranpərəst qrupların hədəflərinə hücum etməklə ABŞ məqsədyönlü şəkildə regionun ən böyük ölkələrini münaqişəyə cəlb etməyə çalışır.

Ərazilәri vurulan İraq və Suriyada ABŞ-ın hərəkətləri kəskin etirazlara səbəb olub. Suriya Xarici İşlər Nazirliyi təəccüblə qeyd edib ki, Amerikanın hücumu Suriyanın şərq bölgəsinə yönəlib. Suriya qüvvələri burada İŞİD terror qruplaşmasının qalıqları ilə mübarizə aparır, ABŞ isə bu istiqamətdə terror fəaliyyətini canlandırmaq üçün fəaliyyət göstərir. Suriyanın SANA agentliyinin verdiyi məlumata görə, ABŞ-ın hücumları həm hərbçilərin, həm də mülki şəxslərin həlak olmasına, dövlət və şəxsi mülkiyyətə ciddi ziyan vurub.

Öz növbəsində, İraq silahlı qüvvələrinin baş komandanının nümayəndəsi Yəhya Rəsul hücumları "İraqın suverenliyinin pozulması və hökumətin ölkədəki vəziyyəti sabitləşdirmək səylərinə zərbə vurmaq" adlandırıb. Onun sözlərinə görə, Birləşmiş Ştatlar "İraqı və bütün regionu gözlənilməz dan və ona verilən mandatdan yayınaraq" İraq üçün təhlükəsizlik təhdidləri yaradıb.

ABŞ-ın 16 nəfərin ölümü ilə nəticələnən zərbələrinə cavab olaraq İraqın baş naziri Məhəmməd Şia Sabbar əl-Sudani şənbə günü ölən əsgərlərin və mülki şəxslərin xatirəsinə ölkədə üç günlük milli matəm elan edib. Öz növbəsində, Amerika komandanlığı hava hücumlarının ABŞ-ın İordaniyadakı hərbi bazasına edilən son hücuma cavab olduğunu bildirir və onların hədəfini İraq və Suriyada İran İslam İnqilabı Keşikçiləri Korpusu (SEPAH) ilə əlaqəli silahlı qruplar adlandırır. Şənbə günü gecə Pentaqon İraq və Suriyada 85-dən çox İran İnqilabı Keşikçiləri Korpusunun obyektləri və əlaqəli birləşmələrinin məğlub edildiyini bildirdi. ABŞ ordusu bildirib ki, hava hücumları komanda məntəqələri, kəşfiyyat mərkəzləri, raket və dron anbarları, eləcə də SEPAH və onun İraq və Suriyadakı etibarlı qüvvələrini sursatla təmin edən obyektləri hədəf alıb. İraq və Suriyanın bombalanmasından sonra Associated Press Amerika nümayəndəsinə istinadən, əməliyyatın missiyasının tam şəkildə tamamlandığını - bütün planlaşdırılan hədəflərin, eləcə də bir neçə "əməliyyat zamanı meydana çıxan dinamik hədəflərin" vurulduğunu bildirib.

Şənbə günü axşam İraq və Suriyadakı nasib və lazımi əlavə silsilə zərbələr endiriblər".

Amerika komandanlığının sözlərinə görə, Yəmən ərazisinə yeni hücumlar husilərin ticarət gəmilərinə, eləcə də Qırmızı dənizdəki döyüş gəmilərinə qarşı davam edən hücumlarına cavab olub. Avstraliya, Bəhreyn, Böyük Britaniya, Danimarka, Kanada, Hollandiya, Yeni Zelandiya və ABŞ-dan verilən birgə bəyanatda qeyd edilib ki, "aparılan dəqiq zərbələr husilərin imkanlarını zəifləmək və pozmaq üçün nəzərdə tutulub". Zərbələrin hədəfi yerin dərinliklərində yerləşən silah anbarları, raket sistemləri və qurğuları, hava hücumundan müdafiə sistemləri və radarlar olub.

Bu arada, İraq və Suriyada Amerikanın hücumuna məruz qalan qrupların, eləcə də Ənsar Allah hərəkatının Yəmən husilərinin arxasında duran əsas xarici qüvvə olan İran rəhbərliyi ABŞ-ın hərbi əməliyyatını "strateji səhv" adlandırıb. İran Xarici İşlər Nazirliyinin sözçüsü Naser Kənani deyib: "İraq və Suriyaya hücum ABŞ hökumətinin növbəti qumar oyunu və strateji səhvidir və bunun regionda gərginliyi və qeyri-sabitliyi artırmaqdan başqa bir nəticəsi olmayacaq". O, ABŞ-ı hücuma məruz qalan ölkələrin suverenliyini və ərazi bütövlüyünü pozmaqda, habelə beynəlxalq hüquqa və BMT sinin vaxtı çatıb. ABŞ Konqresinin spikeri məsələnin qiymətini açıqlayıb: "Biz ABŞ hərbi qüvvələrinə qarşı 150-dən çox hücumla üzləşmişik, amerikalıların həyatını itirmişik və regionda milyardlarla dollar xərcləmişik".

İranın xarici işlər naziri Hüseyn Əmir Abdullahiyan Yaxın Şərq dövlətləri ərazisində hərbi əməliyyatlar aparan ABŞ və Böyük Britaniyanı "regionun qəzəbinə tuş gəlməyə" çağırıb.

"Biz ABŞ və Böyük Britaniyanın Yəmənə hərbi hücumlarını, eləcə də ABŞ-ın İraq və Suriyadakı təcavüzünü qətiyyətlə pisləyirik. Bölgənin qəzəbini hiss etməyin", - o, X sosial şəbəkəsindəki səhifəsində yazıb. İran diplomatiyasının rəhbəri əlavə edib ki, onun ölkəsi "İraq, Suriya, Yəmən və Fələstinin təhlükəsizliyini düşünür, bütün bölgənin təhlükəsizliyini təmin edir".

Fevralın 4-də İslam Respublikası Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Nasser Kənani Çafi bildirib ki, ABŞ və Böyük Britaniya qiyamçı Yəmənin Ənsar Allah hərəkatının (husilərin) mövqelərinə hücumları davam etdirərək, bütün regionda təhlükəsizliyi təhdid edir. Kənani Çafi ABŞ-ın İraq və Suriyaya zərbələrini "strateji səhv" adlandırıb.

**V.SALAH**



# Haylar üçün fəlakət vəd edən FRANSA-ERMƏNİSTAN OYUNLARI

***Emmanuel Makronun prezidentliyi dövründə Fransanın Ermənistanı alət edərək, oynadığı oyunlar məhz Cənubi Qafqazda vəziyyəti gərginləşdirmək və rəsmi Parisin öz çirkin niyyətlərini reallaşdırmaq niyyətindən irəli gəlir. İşğalçı ölkəni silahlandırmaq, həmin ölkəyə hərbi sahədə dəstək vermək sülh niyyəti ilə bağlı ola bilməz. Əksinə, görünən odur ki, rəsmi Paris İrəvana dəstək verməklə, xüsusən də hərbi sahədə köməkliklər göstərməklə, həmin ölkəni yeni müharibələrə, yeni münaqişələrə doğru sürükləyir.***

Fransa Milli Jandarmının briqada generalı Uilyam De Meyerin Ermənistanda Avropa İttifaqının kəşfiyyat və müşahidə missiyasının yerləşdiyi yerə nümayişkaranə səfəri bir çox məqamlara aydınlıq gətimək üçün kifayət edir. "Uilyam De Meyer Ermənistan-Azərbaycan sərhədindəki vəziyyətlə tanış olub", deyə həmin missiyanın bəyanatında bildirilməsi sıradan bir mesaj kimi qəbul oluna bilməz. Belə çıxır ki, Ermənistan-Azərbaycan sərhədindəki vəziyyətlə bağlı kənardan burun soxanlar var və bu açıq-aşkar şəkildə etiraf də edilir. Hər halda, heç bir vasitəçi olmadan danışıqların və sülh təşəbbüsünün gündəmdə olduğu bir vaxtda hansısa ölkənin, daha dəqiq desək, Fransanın Milli Jandarmının briqada generalının, qeyd olunduğu kimi, Ermənistan-Azərbaycan sərhədindəki vəziyyətə burun soxmasına qətiyyən ehtiyac duyula bilməzdi. Əgər burun soxulursa, deməli, niyyət tamamilə başqadır və Fransanın sülh deyil, münaqişə, müharibə niyyəti göz önündədir.

Uilyam De Meyerin başqa bir yerə deyil, məhz sərhəd bölgəsinə səfəri bir daha sübut edir ki, Avropa İttifaqının Ermənistandakı missiyası heç də mülki missiya deyil və dinc sayıla bilməz. Həmin o briqada generalının Ermənistan-Azərbaycan sərhədindəki vəziyyətlə tanış olması barədə bildirilməsi də təsdiq edir ki, sözügedən missiya kəşfiyyat və hərbi missiyadır. Avropalıların bunu təkzib etməsi, yaxd inkar etməsi heç də inandırıcı deyil. Çünki Ermənistanda Avropa İttifaqının kəşfiyyat və müşahidə missiyasının yerləşdiyi yerə nümayişkaranə səfər edən Uilyam De Meyerin sadəcə olaraq jandarm generalı olmaması bəllidir. Bəlli olan odur ki, o, bir vaxtlar Fransa Xarici İşlər Nazirliyinin Təhlükəsizlik və Müdafiə Əməkdaşlığı Direktorluğunda və Brüsseldə Avropa Xarici Fəaliyyət Xidmətində işləyib və sözsüz ki, bu strukturların Fransa kəşfiyyatı ilə sıx bağlı olduğunu qəbul etməmək sadəlövhlük olardı. "Avropa İttifaqının Ermənistandakı missiyası rəhbərinin müavini Fransanın keçmiş xarici kəşfiyyatçısıdır", deyən Hayk Nahapetyan kimi erməni ekspertlərinin də məlum qənaətə gəlmələri özü də deyilənləri təsdiq edən məqamdır. Daha dəqiq desək, erməni ekspertləri özləri də artıq məsələ ilə bağlı etiraflar edirlərsə, deməli, şübhə edəcək heç nə qalmır.

İndi dırnaqarası "vəziyyətlə tanışlıq" kimi təqdim olunan heç də deyilən və eşidilən kimi deyil. Rəsmi Paris "tanışlıq" üçün bu boyda "oyun" qurmağa qətiyyən ehtiyac duymur və prezident Makron özü istənilən anda vəziyyətlə bağlı elə öz erməni bacılarından məlumat ala, vəziyyətlə tanış ola bilər. Artıq bəllidir ki, Fransa üçün maraqlı olan bir neçə aydır keçirilən kəşfiyyat təlimidir. Sözsüz ki, bunun da fonunda fransızların erməni ordusunu yenidən silahlandırmaq cəhdləri özünü büruzə verir. Çox güman ki, Aİ missiyasının həcminin artırılması adı altında həmin o silahlandırmaq niyyətinin reallaşdırılması düşünülür. İstənilən halda, Fransa Ermənistanı silahlandırmaq və intiqam adı ilə həmin ölkəni münaqişəyə, müharibəyə sürükləməkdədir. Təbii ki, hücum etməyə, heç olmasa bir qarış da olsa torpaq ələ keçirməyə erməniləri şirnikləndirmək fransızlar üçün çətin deyil. Çünki onsuz da hayların belə bir "iştahası" hər zaman olub və bu, fransızlara çoxdan bəllidir deyə bundan istifadə etmək heç də çətin olmaz. Yəni rəsmi Paris hayların başqalarına məxsus olanı mənimsəmək, özünə məxsus olmayanı özününküləşdirmək xislətinə bələd olduğu üçün belə bir plan barəsində düşünə bilər. Yəqin ki, Fransanın dəstəyinə ümid edən ermənilər də bu baxımdan sülh təşəbbüsü barədə düşünməyə tələsmirlər və görünür, rəsmi İrəvan da sülh müqaviləsinin imzalanmasını bu səbəbdən gecikdirir və hər cür bəhanələr uydurmaqla, bir növ açıq-aşkar nəyə isə ümid bəsləyir.

Məhz hayların belə mənasız ümidləri fransızları, ələlxüsus da ermənidən betər erməni olan Emmanuel Makronu bir qədər həvəsləndirir. Hətta onu bir çox addımlar atmağa, Ermənistan üzərindən Cənubi Qafqazda oyunlar qurmağa sövq edir. Fransa tərəfindən gah silah göndərilir, gah vədlər verilir, gah da hərbi dəstək barədə danışıqlar aparılır ki, bütün bunlar oyunun bir parçası və üzdə olan hissəsidir. Hayların aldıqları sınıq-salxaq hərbi texnikadan belə nə qədər "sevincək" olduqlarını görən fransızlar erməni bacılarını istədikləri istiqamətə yönəltməkdə çətinlik çəkməyəcəkləri qənaətinə gəliblər və hansı oyunu istəsələr qura biləcəklərinə əmindirlər. Ola bilsin ki, 44 günlük müharibədən, sonra da anti-terror tədbirlərindən lazımınca dərs almayan ermənilər də ortaya çıxa bilər və yenə də müharibə istəyində olduqlarını bildirərlər. Yəni, Fransanın oyununda alət ola bilərlər. Amma onlar dərk etsələr yaxşı olar ki, bu oyunlar ümumilikdə erməni cəmiyyətinə daha ağır fəlakətlər vəd edir və bu onlar üçün daha acınacaqlı sonluq deməkdir. Hər halda, oyunlara alət olub-olmamaq seçimi Ermənistanın öz əlindədir və bəlkə də rəsmi İrəvan özü də Parislə bərabər oyuna razılıq verib. Lakin bu Fransa-Ermənistan oyunları yekunda erməni xalqı üçün heç də yaxşı nəticələr vəd etmir.

Düşmənlərimizin nə qədər hiyləgər olduğunu artıq çox yaxşı bilirik, oynadıqları oyunlar barəsində də məlumatlıyıq və ən azından tarixi təcrübəmiz bizə ehtiyatlı olmağın vacibliyinin fərqində olmaq üçün yetərlidir. Bu baxımdan da hadisələrin belə cərəyan etməsi, məhz Fransanın Ermənistanla oynadığı oyunlar onu deməyə əsas verir ki, Azərbaycanın işğalçı ölkə sərhədlərini daha da möhkəmləndirməsi, istənilən təxribata hazır olması günün tələbidir. "Ordumuzun qurulması prosesi davam edəcək. Ermənistan bilməlidir ki, nə qədər silah alsa da, nə qədər dəstəklənsə də, bizə qarşı hər hansı təhlükə mənbəyi dərhal məhv ediləcək. Bunu gizlətmirəm ki, sabah heç kim gözlənilməz bir şeyin baş verdiyini deməsin. Qoy hamı eşitsin ki, əgər biz bu fransız zibilləri, "Bastion" adlı bu qutuları deyil, özümüz üçün real təhlükə aşkar etsək, onların məhv edilməsi üçün dərhal qabaqlayıcı tədbirlər görəcəyik", deyə bəyan edən Azərbaycan Prezidenti cənab İlham Əliyev yerli mətbuata açıqlamasında çox ciddi mesajlar ünvanlayıb. Bu mesajlar bizim düşmənlərimizə hər zaman hazır olduğumuzu və istənilən zaman baş qaldıracaqları təqdirdə yenə də onların öz yerində oturdulacağına əminlik ifadə edir.

Ümumiyyətlə, Fransanın Ermənistanla hansısa təhlükəli oyunlar qurması bir sıra qonşu ölkələrə də təsirsiz ötüşə bilməz. Daha doğrusu, qonşu ölkələrin narahatlıq keçirməsi üçün də əsas var. Məsələn, Ermənistan ərazisində hərbi bazası, sərhədçiləri və digər hərbi infrastrukturları olan Rusiya bununla bağlı daha çox narahat olmalıdır və heç şübhəsiz ki, narahatdır da. Kremlin prosesləri izlədiyinə və istənilən məqamda bu məsələlərə müdaxilə edəcəyinə də şübhə yoxdur, çünki Moskva regionda öz maraqlarını nəzərə almayacaq və Parisə güzəştə gedəcək görünmür. Həmçinin Fransanın bölgəyə burun soxması İran üçün də arzuolunan hal sayılmır. Çünki qeyri-regional oyunçuların ortaya atılması İran tərəfini hər zaman narahat edib. Maraqlarının əksinə olan istənilən addıma İran tərəfi biganə qalmayıb və dərhal da reaksiya verib. İndi də Parisin yuyulmamış qaşıq kimi ortaya atılmasına görə İran tərəfi də sözsüz ki, narahatdır və öz etirazını da bildirəcəyinə zərrə qədər şübhə ola bilməz. Artıq bir çox ölkələr üçün, ələlxüsus da Rusiya, eləcə də İran üçün sirr deyil ki, Qərb Ermənistandan Azərbaycana, Rusiyaya, İrana və Türkiyəyə qarşı kəşfiyyat yeri kimi istifadə edir. Yəni, missiya adı altında qorduğu oyunların pərdə arxasında başqa niyyətlərin olduğu danılmazdır. Görünən odur ki, Ermənistan bu niyyətlərə də, planlara da, oyunlara da müti şəkildə boyun əyir və oyunun bir parçası olmağa da razıdır. Amma bu o demək deyil ki, digər ölkələr də bununla razılaşıblar və ya bundan sonra razılaşacaqlar. Qətiyyən. Çünki Ermənistan-Fransa oyunlarının bütün region üçün problem demək olduğu bəllidir.

Bəli, həqiqətən də Fransa hər zaman olduğu kimi, yenə də hansısa oyunlar qurur və bu oyunlar çirkin niyyətləri reallaşdırmaq üçündür. Bu baxımdan da həmin oyunların təsirsiz ötüşməyəcəyi ölkələrin, ələlxüsus da region dövlətlərinin Fransa-Ermənistan oyunlarına görə narahatlığı da başadüşüləndir. Başa düşülməyən isə, Ermənistanın könüllü şəkildə həmin oyunlara alət olmağa razılıq verməsidir. Çünki Fransanın bu vaxta qədər törətdiklərini bilə-bilə ölkələrini nələr gözlədiyini hayların anlamadığını başa düşmək çox çətindir. Bu oyunların fonunda Ermənistanın nə ilə qarşılaşacağını, erməni cəmiyyəti üçün nələrin hazırlandığını dərk etməyənləri həqiqətən də başa düşmək olmur. Hər halda haylar Livanın acınacaqlı taleyindən xəbərdar olmaya bilməzlər və Fransanın oyunlarının ardınca Ermənistanın eyni ilə Livanın taleyini yaşamayacağı barədə rəsmi İrəvan heç də sığortalı deyil. Deməli, belə çıxır ki, haylar özləri üçün fəlakət vəd edən Fransa-Ermənistan oyunlarına nəinki göz yumurlar hətta körtəbii şəkildə alət olmağı da qəbul edirlər.

***İnam Hacıyev***

TƏHLİL

# Ermənilərin anti-Rusiya çağırışları artıq qırmızı xətti keçməkdədir

*Fevralın 1-dən Ermənistan Beynəlxalq Cinayət Məhkəməsinə (BCM) rəsmən qoşuldu. Bununla da o BCM-nin iştirakçısı olan 124-cü ölkə oldu. Rusiyanın RİA Novosti agentliyi bildirib ki, bu, Rusiya üçün skandal bir qərardır. Çünki Roma statutuna əsasən, Beynəlxalq Cinayət Məhkəməsinin Rusiya Prezidenti Vladimir Putin haqqında çıxardığı həbs qərarından sonra o, Ermənistana gələrsə, saxlanıla bilər.*

## *Paşinyan Putinin Ermənistana səfərini necə əngəlləyir?*

Bundan başqa, iki gün əvvəl İrəvanda İkinci Dünya Müharibəsi zamanı blokadada olmuş Leninqrad uşaqlarının xatirəsinə ucaldılmış abidənin təhqir olunması da Rusiyada kəskin etiraz doğurub. Məsələ burasındadır ki, sosial şəbəkələrdə özünü Samvel Şirinyan kimi təqdim edən İrəvan sakini həmin abidənin önündəki çələngləri dağıdıb, Rusiya bayrağının rənglərinə uyğun lenti tapdalayıb və bu hərəkətlərini videoya çəkərək yayıb.

Rusiya Xarici İşlər Nazirliyi bu vandalizm aktını kəskin şəkildə pisləyib. Eyni zamanda Rusiya Federasiyası İstintaq Komitəsinin sədri Aleksandr Bastrıkin abidənin təhqir olunması ilə bağlı cinayət işinin başlanmasına göstəriş verib. Bütün bunlar bir daha göstərir ki, erməni cəmiyyətində anti-Rusiya əhval-ruhiyyəsi hər gün daha da yüksəlir. Rusiyalı analitik, Xəzər Strateji Araşdırmalar İnstitutunun baş direktoru İqor Korotçenko bildirib ki, ermənilərin bu hərəkətinə bəraət qazandırmaq mümkün deyil: «Bu, Rusiyanın üzünə tüpürməkdir. Üstəlik, bu, indiki erməni cəmiyyətində hakim olmağa başlayan rusofobiyanın və anti-Rusiya əhval-ruhiyyəsinin göstəricisidir».

İ. Korotçenko vurğulayıb ki, Ermənistan cəmiyyətində belə vəziyyətd xeyli müddətdir ki, müşahidə olunur. Onu fikrincə, Ermənistanın baş naziri Nikol Paşinyan Rusiyadan rəsmi şəkildə üzr istəməlidir: «Ermənistanın müvafiq hüquq-mühafizə orqanları isə bu cinayəti hərtərəfli araşdırmalı və cinayətkarın mühakimə olunması və onunla bağlı ədalətli qərarın çıxarılması üçün həmin şəxsi Rusiya ədliyyəsinə təhvil verməlidir».

Biz Ermənistandakı anti-Rusiya əhval-ruhiyyəsindən dəfələrlə yazmışıq. Xüsusilə vurğulamışıq ki, erməni saytları ötən illərdə bu ölkənin əleyhinə silsilə yazılar dərc edib-lər. O cümlədən erməni siyasətçiləri də tez-tez Rusiyanı ittiham edən açıqlamalar verirlər. Xüsusilə Ermənistanın baş naziri Nikol Paşinyan son dövrlər anti-Rusiya çıxışlarını açıq mətnlə ifadə edir. Rəsmi İrəvan artıq Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) təlimlərindən də imtina edib. Əvəzində ABŞ-la birgə təlimlər keçirir və ərazisində Avropa İttifaqı (Aİ) müşahidə missiyasının mövcudluğuna üstünlük verir. Yəni, rəsmi İrəvan Azərbaycanla sərhəddə gərginlik iddiasını ortaya ataraq hər vəchlə Aİ-nin Ermənistanda missiyasının genişlənməsinə çalışır.

Erməni mediasında yer alan xəbərlərə görə, Avropa İttifaqının müşahidə missiyası 2023-cü ilin noyabrında Tavuş vilayətinin İcevan şəhərində əməliyyat mərkəzi açıb. Bu, artıq Aİ-nin Ermənistandakı üçüncü mərkəzidir. Aİ-nin Ermənistandakı müşahidə missiyasının sayının artırılmasının yalnız bir məqsədi var - KTMT-dən uzaqlaşmaq, ardınca da rus qoşunlarının Ermənistandan çıxarılmasına nail olmaq. Ermənistanda Rusiya və onun himayəsində olan təşkilatlara inam və etibarın minimuma enməsinə səbəb kimi Azərbaycanla İkinci Qarabağ müharibəsində lazımi dəstəyin olmaması göstərilir. Halbuki, bu barədə KTMT-nin Nizamnaməsində belə bənd var ki, təşkilat yalnız üzv dövlətlərin ərazisinə hücum olarsa hərbi müdaxilə etmək zərurəti yaranar.

Hətta İkinci Qarabağ müharibəsində Ermənistanın sərhəddə gərginlik yaratmaqla KTMT-ni münaqişəyə cəlb etmək kimi məkrli planı da baş tutmadı. Məhz bundan sonra Ermənistan hakimiyyəti Rusiya və onun himayəsi ilə qurulan bir çox təşkilatlardan qeyri-rəsmi formada imtina etməyə başladı. Əvvəlcə baş nazir Nikol Paşinyanın yaxın ətrafına daxil olan məmurlar, sonra isə özü dəfələrlə bu qurumlara üzvlüyün əhəmiyyətsizliyini vurğuladılar. Baş nazir sonuncu müsahibələrində daha irəli gedərək KTMT-nin Ermənistanın maraqlarını qorumaq iqtidarında olmadığını bəyan etdi.

Bəli, geosiyasi kursunu dəyişən rəsmi İrəvan artıq Avropa İttifaqına daxil olan ölkələrlə yaxınlaşır, təşkilatın Ermənistan ərazisində missiyasını genişləndirməyə çalışır. Amerikalı milyarder Corc Sorosun planına uyğun olaraq ABŞ-la əməkdaşlığın genişləndirilməsi, hətta onunla birgə hərbi təlimlər keçirilməsi də bu planın tərkib hissəsidir.

Paşinyan hakimiyyəti bu qənaətdədir ki, Ermənistanın Rusiyadan asılılığı ən yüksək həddədir və bundan yaxa qurtarmaq lazımdır. Onun qənaətincə, Rusiyanın yerini Qərb və digər tərəfdaşlar tutmalıdır. Bir sözlə, ermənilər artıq Rusiyanı tərəfdaş kimi görmür və onu satqın hesab edirlər. Əslində, Ermənistanın Rusiyadan asılılığa son qoyması heç də asan məsələ deyil. Ona görə ki, Ermənistan təkcə hərbi deyil, həm də iqtisadi cəhətdən də Rusiyadan asılıdır. Burada ən böyük istehsalat müəssisələrindəki payın böyük hissəsi Rusiyanın əlindədir.

Bundan başqa, anti-Rusiya cəbhəsinin lideri Nikol Paşinyan, indi eyni zamanda, Rusiyapərəst müxalif qüvvələrlə də mübarizə aparır. Yəni, bu işdə Paşinyana sadəcə rəhbəri olduğu azsaylı Soros komandası dəstək verir. Bütün bunların fonunda ölkədəki Rusiyanın təsiri altında olan qüvvələr də xeyli fəallaşıblar.

Bu gün ermənilər gərgin günlərini yaşayırlar. Çünki Ermənistan son günlər forpostu olduğu Rusiyaya qarşı soyuq müharibə elan edib. Hətta yaxın gələcəkdə hayların MDB-dən və Avrasiya İqtisadi İttifaqından da imtina edəcəkləri gözlənilir. Ötən ilin sonlarında Sankt-Peterburqda keçirilən Avrasiya İqtisadi İttifaqnın iclasında Nikol Paşinyan buna eyham vurub. Bildirib ki, bu təşkilat da artıq Ermənistan üçün maraqlı deyil. Analitiklərin fikrincə, hayların anti-Rusiya çağırışları artıq qırmızı xətti keçməkdədir və rəsmi Kreml Ermənistanın bu və digər nankorluğunu cavabsız qoymayacaq.

**Elçin Zaman**












# Fuad Qəhrəmanlı Əli Kərimlidən üz döndərir



Fakt ondan ibarətdir ki, dağıdıcı müxalifət sağlam rəqabətin əvəzinə təxribatlara üstünlük verir, destruktiv yol tutur. Hətta AXCP, Müsavat, Milli Şura kimi dağıdıcı qurumlar və onların liderləri şər və böhtanları, təxribat xarakterli açıqlamaları ilə cəmiyyətdə gərginlik yaratmağa ümid edirlər. Təbii ki, bu kimi ağılsız addımları ilə ictimai rəydə onlara qarşı olan mənfi münasibəti daha da dərinləşdirmiş olurlar. Diqqətçəkən məqam ondan ibarətdir ki, mövcud reallıqları nəzərə almağa məcbur olan AXCP sədri Əli Kərimli bir sıra iddialarından və təkliflərindən imtina etdiyini bəyan edib. Əsasən də o müxalifətçiliyi monopoliyaya almaq iddiasından imtina etdiyini açıqlayıb. Deyib ki müxalifət olmaq istəyib, ola bilməyənlər də daha seçimlərində sərbəstdirlər: "Müxalifətçilik üzərində monopoliyanı ləğv edirəm. Artıq bu ölkədə hər kəs müxalifətçi ola bilər. Artıq heç kim çəkinməsin. Nəhayət, sərbəst şəkildə müxalifətçiliklə məşğul olun. Bütün birləşmək və ya ayrılmaq istəyən müxalifətçilər, bloqçular və digərləri də artıq azaddırlar. Artıq birləşmək, ittifaq və siyasi birlik qurmaq üçün də icazə tələb olunmayacaq".

### Ə.Kərimli yazdığı statusu ilə təsdiq etdi ki, o və trolları aciz durumdadılar

Ə.Kərimli yazdığı statusu ilə təsdiq etdi ki, o və torolları aciz durumdadılar. Həm də Ə.Kərimli nümayiş etdirdi ki, cəmiyyətin onlara heç bir formada dəstək verməməsi, anormal çağırışlarını qətiyyətlə rədd etməsi fəaliyyətlərində ciddi əngəllər yaradıb. Lakin əməllərinə görə, xalqdan üzr istəməməsi təəccüb doğurur. Çünki, bu məxluq bütün siyasi fəaliyyəti dövründə Azərbaycanın milli və dövlətçilik maraqlara qarşı düşmənçilik mövqeyində dayanıb. Bütün imkanları ilə çalışıb ki, ölkədəki mövcud ictimai sabitliyi pozmaqla cəmiyyətdə xaos və anarxiya yaratsın. Təbii ki, bu təxribatları qarşılığında xaricdəki ant-Azərbaycan şəkədən maliyyə vəsaitləri əldə edib. Bunla bağlı çoxsaylı faktlar mövcuddur. Yəni dəfələrlə AXCP fəallarının Gürcüstan vasitəsi ilə Əli Kərimliyə pul gətirməyə cəhd etdikləri zaman Azərbaycan kömürük əməkdaşları tərəfindən saxlanılıblar. Sonradan istintaq materialları ilə sübuta yetirilib ki, qaçaqmalçılıq yolu ilə Ə.Kərimliyə gətirilən pullarla ölkədə qarşıdurmalar yaratmaq, təxribatlar törətmək planlaşdırılıb. İndi isə dövr dəyişdiyindən, xüsusilə də anormal çağırışlarının nəticə vermədiyini və bunun fonunda xaricdən bir o qədə maliyyə vəsaitinin gəlmədiyini anlayan Ə.Kərimli təsiri altında saxladığı cəbhəçilərə sərbəstlik verir.

Bundan sonra nələr yaşanacaq? Birincisi, dövlətçiyə bağlı müxalifətçilər milli maraqlara zidd fəaliyyətə qoşulmayacaqlar. İkincisi, AXCP daxilində fəal cəbhəçilər özlərinə yeni fraksiyalar yaradacaqlar. Ücüncüsü, trollar təxribat xarakterli statuslar paylaşmağa məcbur edilməyəcəklər. Söz yox ki, bu halların baş verməsi AXCP-nin sonunu gətirəcək. Çünki, daxili xaos parçalanmaya gətirib çıxaracaq. Sosial şəbəkələr də şər və böhtanların aradan qaldırılması isə xarici məkrli dairələrin AXCP-yə ayırdı aylıq vəsaitin tamamilə kəsilməsi demək olacaq. Məhz gözlənilən fəlakəti göz altında aldığındandır ki, baş trol olmaq iddiasından hələ də imtina etməyən Fuad Qəhrəmanlını həyəcan təbili çalan status paylaşmağa məcbur edib. O yazdığı statusunda bildirib ki, Əli Kərimlinin müxalifət üzərində monopoliyasını aradan qaldırmaq barədə son qərarına münasibəti onu qane etməyib: "Əli bəyə bu gecikmiş qərara görə təşəkkür etməyə gərək yox. Bu qədər gecikmiş addımdan sonra bəs indiyə qədər itirilmiş fürsətlərin, imkanların hesabını kim verəcək? Əli bəy bu barədə niyə bir kəlmə də olsun danışmayıb?"

Bir qədər sonra Ə.Kərimli daha bir açıqlama ilə çıxış edəcək: "AXCP adlı firmanı bağlayıram".

F.Qəhrəmanlı paylaşdığı statusunda pul dağarcığı hesab etdiyi Ə.Kərimlini qınamaqdan, ona qarşı ittihamlar irəli sürüb, təhqir etməkdən də çəkinmir. Bu hal təəccüb doğursa da gözləniləndir. Çünki, pul onun üçün Ə. Kərimlidən də şirindir: "Bir də Əli Kərimlinin müxalifət üzərində monopoliyasını qaldırmağa bağlı qərarı yenə də tam deyil. Çünki orada bir çox məsələlər göstərilsə də, müxalifət liderliyi barədə bir kələmə də olsun heç nə deyilmir. Əli Kərimli bu yarımçıq qərarı ilə cəbhəçilərin inkişafına əngəl olur. Hamılıqla Əli Kərimlidən tələb etməliyik ki, yeni müxalif siyasi liderlər düzəltmək məsələsini öz paketinə daxil etsin və gecikmədən bu istiqamətdə addım atsın".

Bir sözlə, yanlış və səhv siyasətin acı nəticəsi AXCP-ni çalxalandırmaqdadır. Yəqin ki, bundan sonra AXCP-nin mövcudluğu uzun çəkməyəcək. Yəni bir qədər sonra Ə.Kərimli daha bir açıqlama ilə çıxış edəcək: "AXCP adlı firmanı bağlayıram".

**İLHAM ƏLİYEV**

# "KTMT tərəfindən Ermənistanın işğalçılıq siyasəti dəstəklənməyib"



"Ermənistan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında (KTMT) aparıcı dövlət deyil". Bu sözləri SİA-ya açıqlamasında deputat Hikmət Babaoğlu deyib. Deputat bildirib ki, ona görə də Ermənistanın KTMT-də qalması və çıxması KTMT üçün heç nəyi dəyişməyəcək: "Ancaq Ermənistan üçün bəzi şeylər dəyişə bilər. Ermənistanın bu günə qədər KTMT-də qalmasının səbəbi də məhz bu tərəddüdlərlə bağlıdır. Məsələ ondadır ki, KTMT-dən kənar da Ermənistanın Rusiya ilə xüsusi münasibətləri var. Ermənistan üzv olmadan öncə də Rusiyanın Ermənistanda hərbi bazası var idi. Ermənistanın İran və Türkiyə ilə xarici sərhədlərini Rusiya sərhədçiləri qoruyurdu. Bu gün də belədir. KTMT sonradan



yaranan təşkilat kimi əlavə təhlükəsizlik təminatı verən bir quruma çevrilib ki, şübhəsiz, təşkilatların yalnız ümumi maraqları çərçivəsində olmalıdır. Ermənistanın KTMT-dən narazılığı ondan ibarətdir ki, KTMT tərəfindən onun işğalçılıq siyasəti dəstəklənməyib. Dünyanın heç bir yerində elə bir beynəlxalq hərbi-siyasi alyans yoxdur ki, kiminsə təcavüzünə bəraət qazandırsın. Ona görə düşünürəm ki, daha çox Ermənistanın KTMT-yə münasibəti dəyişməlidir. Hər kəs aydın şəkildə dərk etməlidir ki, heç bir beynəlxalq təşkilat bir ölkənin başqa ölkəyə qarşı təcavüzünü dəstəkləməklə bağlı nizamnaməsində xüsusi bəndlər qeyd etmir".

*MÜNASİBƏT*

O, əlavə edib ki, hazırkı mərhələdə Ermənistanın KTMT-ni tərk etməsi mümkün görünmür: "Çünki bunun hansı nəticələr doğuracağını Ermənistan proqnozlaşdıra bilmir. Üstəlik Azərbaycan Prezidentinin qeyd etdiyi kimi "Ermənistan +" siyasi formulası da bunu proqnozlaşdıra bilmir. Yəni Ermənistan müstəqil iradə nümayiş etdirə bilmir. "Ermənistan +" dedikdə onu idarə edən digər imperialist mərkəzlər - Fransa, İran və sair nəzərdə tutulur. Ermənistan burada müstəqil qərar nümayiş etdirə bilməyəcəkdir. Yaxın perspektivdə, yəni 2024-cü ilin noyabrına qədər olan müddətdə nəyinsə dəyişəcəyini güman etmək doğru olmaz. Ondan sonra Rusiya - Ukrayna müharibəsi və Yaxın Şərq müharibəsinin nəticələri ilə bağlı dəqiq proqnozlar ifadə etdikdən sonra müəyyən qərar qəbul oluna bilər. Ancaq bu, Ermənistanın qərarı olmayacaq. "Ermənistan +"un KTMT-yə, yaxud Rusiyaya qarşı qərarı olacaqdır".

**Söylü Ağazadə**

# Müəlliflik hüququnu pozanları hansı cəzalar gözləyir?

***"Azərbaycan Respublikası Konstitusiyasının 30-cu maddəsinə əsasən, hər kəsin əqli mülkiyyət hüququ var". Bu sözləri SİA-ya açıqlamasında hüquqşünas Xanlar Sətullayev deyib. O, bildirib ki, bura müəlliflik, ixtiraçılıq və müəlliflik hüququ, ixtiraçılıq hüququ və əqli mülkiyyət hüququnun başqa növləri də aiddir: "Yəni, bütün bunlar qanunla qorunur. Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında qanunun 8-ci maddəsinə görə, əsəri yaradan şəxs onun müəllifi sayılır. Əsərə müəlliflik, digər sübutlar yoxdursa, adı altında açıqlanmış şəxsə məxsusdur.***



**MÜNASİBƏT**

Həmin qanunun 26-cı maddəsinə görə, anonim və ya təxəllüslə dərc edilmiş əsərə müəlliflik hüququ həmin əsərin qanuni dərc edildiyi tarixdən 70 il müddətində qüvvədə qalır. Bu cür qoruma müddəti müəlliflərə və onların vərəsələrinə münasib vaxt ərzində iqtisadi fayda görməyə imkan verir". Hüquqşünas əlavə edib ki, bu qanun sosial şəbəkələrə də aiddir: "Belə ki, kimsə başqasının əsərindən hətta bir abzas götürüb öz fikri kimi sosial şəbəkədə status formasında paylaşarsa, müəllif öz hüquqlarının qorunması üçün məhkəməyə müraciət edə bilər. Qeyd edim ki, müəllif hüquqlarının qorunması ilə bağlı məhkəməyə müraciət dövlət rüsumundan azaddır.

Məhkəmə müəlliflik hüququ və əlaqəli hüquqlar ilə əlaqədar mübahisələrə baxarkən mülki-hüquqi müdafiənin ümumi vasitələrindən başqa iddiaçının tələbi ilə aşağıdakılar barədə qərar qəbul edə bilər:

**1)** zərərin ödənilməsi əvəzinə pozuntuya yol verən şəxsdən müəlliflik hüququnun və əlaqəli hüquqların pozulması nəticəsində əldə etdiyi gəlirin tutulması;

**2)** zərərin ödənilməsi və ya gəlirin tutulması əvəzinə 110 manatdan 55 min manatadək məbləğdə kompensasiya ödənilməsi;

**3)** hüquq pozuntusunun ağırlıq dərəcəsi və digər şəxslərin qanuni maraqları nəzərə alınmaqla məhkəmə qərarına əsasən pirat nüsxələrin surətinin çıxarılması (istehsalı) üçün istifadə edilmiş material və avadanlıqların müsadirə olunması;

**4)** pirat nüsxələrin hüquqları pozan tərəfə heç bir kompensasiya ödənilmədən məhkəmə qaydasında müsadirə olunması və ya məhv edilməsi.

Həmçinin müəllif hüquqlarının pozulması cinayət məsuliyyətinə cəlb olunma ilə də nəticələnə bilər. Belə ki, Cinayət məcəlləsinin 165-ci maddəsinə görə, Müəlliflik hüququ və ya əlaqəli hüquq obyektlərindən qanunsuz istifadə etmə, yəni özgənin elmi, ədəbi, bədii və ya başqa əsərini öz adı ilə nəşr etdirmə və ya özgənin müəllifliyini başqa cür mənimsəmə, bu cür əsəri qanunsuz olaraq yenidən dərc etmə və ya yayma, habelə şərikli müəllifliyə məcbur etmə, əgər bu əməllər nəticəsində xeyli miqdarda ziyan vurulmuşsa, min manatdan iki min manatadək miqdarda cərimə və ya üç yüz iyirmi saatdan dörd yüz səksən saatadək ictimai işlər ilə cəzalandırılır. Ağırlaşdırıcı hallarda isə bu əməl hətta iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır".

**Söylü Ağazadə**

# Ermənistan Paris və Dehli üçün silahların sınaq meydançasına çevrilir





ŞƏRHLƏR

Ermənistanın müdafiə naziri Suren Papikyan ER İctimai Televiziyasına müsahibəsində silah alışının şaxələndirilməsi ilə bağlı maraqlı açıqlamalar verib, eyni zamanda İrəvanın hərbi sahədə yeni tərəfdaşlarının yaranmasına eyham vurub. Heç kimə sirr deyil ki, “daşlar diyarı”nda qızdırmalı silahlanma yarışı 2020-ci ildə Qarabağda 44 günlük müharibədə Ermənistanın sarsıdıcı məğlubiyyətindən dərhal sonra başlayıb. Sonrakı 3 il ərzində Ermənistan tərəfi Azərbaycandan heç də geri qalmayan yüksək texnologiyalı silahlar almaq ümidi ilə israrla bir çox ölkələrin qapısını döydü. Buna nail olmaq üçün İrəvan sistemli şəkildə hərbi büdcəsini artırdı. 2024-cü ildə onun 1,4 milyard dollar olması planlaşdırılır.

Papikyanın sözlərinə görə, “Ermənistan silah tədarükü sahəsində ciddi uğurlar əldə edib”. “Bu prosesdə biz həm də böyük fövqəldövlətlər və digər dost ölkələr səviyyəsində yeni tərəfdaşlar əldə etdik. Söhbət Fransa və Hindistandan gedir, amma hələlik danışmaq istəmədiyim digər tərəfdaşlardan da söhbət gedir”.



Qeyd edək ki, son vaxtlar Paris və Nyu-Dehli Ermənistana əsas silah tədarükçülərinə çevrilib. Lakin Hindistan silahlarının bir çox növlərinin “rütubətini” nəzərə alsaq, çox güman ki, onların ilk alıcısı olan Ermənistan Hindistan hərbi mühəndisləri üçün bir növ təlim poliqonuna çevriləcək.Rusiyalı ekspertlərin mövzu ilə bağlı ”Caliber” analitik mərkəzinə şərhlərini oxucularımıza təqdim edirik.



Tanınmış hərbi ekspert Aleksandr Xramçixinin Caliber.Az-la söhbətində qeyd edib ki, “heç vaxt döyüşdə sınaqdan keçirilməmiş silahların keyfiyyətini qiymətləndirmək mümkün deyil”. Onun sözlərinə görə, Hindistan silahları texnoloji cəhətdən açıq-aşkar Rusiya, Qərb və hətta Çin silahlarından aşağıdır.

”Hələlik Hindistanın ambisiyaları onun real imkanlarından xeyli yüksəkdir”- Aleksandr Xramçixin deyir.

Həmsöhbətimiz onu da qeyd etdi ki, Ermənistanın hərbi arsenalında mövcud olan Fransa istehsalı olan Milan tank əleyhinə sistemlər müasir texnologiyalardan uzaqdır. “Bu komplekslərin artıq 50 yaşı var” deyən Xramçixin onların 2020-ci il müharibəsindən əvvəl Yunanıstan tərəfindən Ermənistana verildiyini qeyd edib.

Öz növbəsində, digər rusiyalı hərbi ekspert Vladislav Şurıqin bildirib ki, İrəvan Fransa və Hindistandan silah allmaqla nəyin bahasına olursa-olsun yumurtalarını müxtəlif səbətlərə qoymağa çalışır, lakin ümumiyyətlə, bunun onun üçün heç bir əhəmiyyəti yoxdur. Prinsip budur- kimdən alırsan al, təkcə Rusiyadan alma.

“Bu, Ermənistan rəhbərliyinin Rusiyadan uzaqlaşmaq və Moskva ilə münasibətləri kəsmək siyasətini, o cümlədən alternativ silah tədarükçülərinin axtarışını davam etdirmək cəhdidir. İrəvanın cəmi iki vəzifəsi var. Birincisi, silah ucuz olmalıdır. İkincisi, bunun Rusiya ilə heç bir əlaqəsi olmamalıdır”,- Şurygin bildirib.

İrəvanın regionun hərbiləşdirilməsi cəhdləri ilə bağlı Ermənistanın mümkün revanş alması mövzusunu müzakirə edən rusiyalı hərbi ekspert belə bir ehtimalı tamamilə istisna edərək, Ermənistan və Azərbaycanın hərbi potensialının müqayisəyə gəlməyəcək dərəcədə fərqli olduğunu bildirib. Şurıgin əmindir ki, istənilən qisas cəhdi Ermənistan üçün intiharla nəticələnəcək.

*Tərcümə - Elçin Bayramlı*






# Biz hələ də bizik...

**Mətanət Məmmədova**

***Bizlərdən bəzilərimiz böyüsək də, yetkinləşsək, ahıl yaşa çatsaq da, hələ də özümüzü apara bilmirik. Bu, çox yerdə görünür, müşahidə edilir, lakin ictimai nəqliyyat vasitələrində, ona aid dayanacaqlarda, platformada həm göz-gözə görünür, həm də nifrətə səbəb yaradır...***

Vallah, adamın ağlamağımı, gülməyimi, əsəbləşməyimi, əsəbindən ölməyimi gəlir, hansı olur, deyə bilmərəm, amma onu deyə bilərəm ki, elə bir gün olmaz ki, bu hisslərin birini keçirmədən ya işə gəlib çıxa biləsən, ya da evə gedib çata biləsən. Məsələn, dayanmısan avtobus dayanacağında, gözləyirsən. İndi də gözləmək bir qədər uzun çəkir, bu artıq hər kəsə məlumdur.

Hə, mətləbə gəlim. Gözləyirsən ki, indi marşrut gələr, bir azdan gələr. Gözləyirsən də, nə edəsən? Bir də baxırsan ki, arxadan bir nəfər tüpürdü və o tüpürcək gəlib düz sənin qarşında bərqərar oldu. Nə deyəsən, dönüb geri baxmağı məsləhət görmürəm. Çünki arxada mədəniyyət sarıdan kasıb əhval-ruhiyyədə olan adamın sifətinin üreyinizi sıxacağından ehtiyat edirəm. Bəs nə edəsən, elə yerindəcə deyinəsən? Deyinə bilərsən, lakin nə fayda. Qaldı tənbeh etməyə, bunu da etsən, gərək dava düşə ortaya. Çünki həmin o tüpürən var ha, onda mədəniyyətdən əsər-əlamət olsa, əsla tüpürməz. Elə buna görə də inanın ki, bir söz desəniz, sizi günahkar çıxaracaq.

Daha sonra enirsən metroya ki, ya işə tez çatasan, ya da evə. Platformada yanından əlində çar-çanta ilə biri elə sürətlə ötüb keçir ki, inanın, az qalırsan düşəsən qatar yoluna. Ay qardaş, ay bacı, hələ nə qatar var, niyə tələsirsən, hara tələsirsən? Guya elə qatar gələn kimi minib gedəcəksən? Bu olardı tətildən əvvəlki vaxt ki, bir, iki deyib qatarları yola salandan sonra üçüncüyə minsən, bu da Allahın qisməti, sənə bəxşişi ola bilərdi. İndi ki, sakitlikdi, qoy qatar gəlsin dayansın, içindəki sərnişinlər ensin, min də, bəs belə iş olmaz axı...

Yaxşı, bir təhər qatara minmək nəsib, qismətin oldu. Ta qaldın qatarda, İndi gəl, en görüm, necə enirsən? Nə qapının ağzındakılar buna yol verəcək, nə də platformada dayanıb qapının açılmasını və özünü vaxt itirmədən içəriyə salmaq istəyən sərnişinlər. Sən qalırsan ortalıqda, xınc-mınc olandan sonra bir təhər ya bayıra çıxa bilirsən, ya da qatar yola düşür, bir stansiya da irəli getmiş olursan. Əsəblərin pozulur. Lakin nə fayda...

Olur da, Allahın işidir, təsadüflərin təsadüfü nəticəsində ya metroda qatarda, ya da marşrut avtobusda əyləşmisən, görürsən ki, yanındakı yer boşdur, papağını, ya da əlindəki çantanı da oraya qoyursan. Bunları əldə də saxlamaq olar da. Düzdür, boşdur, lakin o yer axı bizim papaq, çantalarımız üçün deyil. Gərəkdir ki, bir sərnişin gəlib başımızın üstündə dayana, ondan xeyli sonra bizə çata ki, əşyanı götür, qoy adam əyləşsin...

Maraqlıdır, vallah, bizim hər işimiz maraqlıdır. Bakıda ictimai nəqliyyatın fəaliyyəti nə qədər maraqlıdırsa, heç özümüzü kənara çəkməyək, bizim hərəkətlərimiz, ictimai nəqliyyatda davranışlarımız ondan da maraqlıdır.

Bəs çarə nədir? Çarə odur ki, özümüzə cavabdeh olaraq özümüzdə dönüş yaradaq. Papağımızı boş sərnişin oturacağına yox, qarşımıza qoyub bir fikirləşək. Fikirləşək ki, düzgün hərəkət edəcəyimizə qərar verək. Yoxsa, vallah, belə yürüməz... Bizlər elə biz olaraq qalarıq...




# Zəngəzur dəhlizi açılacaqmı?

## *İrəvanın vaxtı tükənir, Bakı isə...*



**Söz yox ku, Zəngəzur dəhlizi bu gün Azərbaycanın reallaşdırmaq istədiyi ən perspektivli layihələrdən biridir. Azərbaycan tərəfindən təklif olunmuş bu marşrut Azərbaycanın əsas hissəsi ilə eksklavı olan Naxçıvan arasında Ermənistan ərazisindən keçərək nəqliyyat əlaqəsinin yaradılmasına yönəlib. Bu dəhlizin yaradılması fikri 2020-ci ildə - 44 günlük İkinci Qarabağ müharibəsindən sonra imzalanmış Üçtərəfli bəyanat nəticəsində ortaya çıxıb. Xarırladaq ki, bəyanatın müddəalarından birində Ermənistanın Naxçıvanla nəqliyyat əlaqəsinin təhlükəsizliyinin təmin olunmasına sadiqliyindən bəhs olunur ki, bu da hər iki istiqamətdə insanların, nəqliyyat vasitələrinin və məhsulların maneəsiz daşınmasına imkan verə bilər. Fəqət...**

Fəqət Ermənistan bilərəkdən bu marşrutun açılmasını müxtəlif və əsassız bəhanələrlə təxirə salır. Azərbaycan isə Ermənistanın davamlı şəkildə nala-mıxa vurmağa davam edəcəyi təqdirdə yüklərin İran ərazisindən göndərilməsi imkanını hər zaman nəzərdə saxladığını gizlətməyib. Rəsmi Bakı Azərbaycanın guya Ermənistanın Zəngəzur dəhlizinin keçəcəyi Sünik vilayətini "tutmaq" niyyətində olduğuna dair mifləri artıq çoxdan çürüdüb. Bununla belə, Azərbaycan ölkənin əsas hissəsi ilə Naxçıvan arasında marşrutla sərnişinlərin daşınmasının təhlükəsizliyinə dair etibarlı təminat tələb edir.

Yeri gəlmişkən, Gürcüstanın sabiq prezidenti Mixail Saakaşvili Ermənistana bu yubanmanı gözdən keçirərək marşrutun potensial faydalarını öyrənməyi təklif etmişdi. O, bir zamanlar Ukrayna və Moldovanın bənzər vəziyyətdə qəbul etdiyi qərara analoji həll yolu belə təklif etmişdi. Belə ki, 30 iyun 2011-ci ildə Kişinyovda Odessa-Reni avtomobil yolunun Moldovanın Palanka kəndi yaxınlığındakı hissəsinin, eləcə də ona bitişik torpaqların sərhədlərini müəyyən edən saziş imzalanmışdı.

Bu hissədə şossenin və lazımi bütün infrastrukturun istismarı və texniki qulluğuna görə məsuliyyət Ukraynanın üzərinə düşür. Eyni zamanda, Moldova şossenin bu hissəsindən pulsuz istifadə üstünlüyünü özündə saxlayır. Bundan başqa, dövlət sərhədlərini keçərkən aparılan adi sərhəd, gömrük və digər yoxlanış formaları bu hissəyə tətbiq olunmur.

Əvvəlcə, ilkin olaraq Moldova və Ukrayna tərəflərində ayrı-ayrı nəzarət-buraxılış məntəqələri fəaliyyət göstərirdi. Lakin sonradan qəbul prosesini sadələşdirmək üçün birgə nəzarət mexanizmi tətbiq olundu. Bundan başqa, Palanka sakinləri şossenin əks istiqamətində Moldova ərazisində yerləşən 900 hektarlıq sahədə kənd təsərrüfatı yerlərindən maneəsiz istifadə hüququnu birmənalı şəkildə özündə saxlayır.

Qeyd olunan nümunə bu köhnə problemin potensial həll yolunu sübutlarla göstərir. Ermənistan üçün açıq-aşkar maliyyə üstünlükləri ilə yanaşı, bu marşrut ölkənin iqtisadi artımını təşviq etməyi və Qərb bazarlarına çıxış imkanını təmin etməyi vəd edir. Azərbaycanın bu layihə çərçivəsində təşəbbüsü daha geniş regional inkişafın əsasını qoyacaq.




Fakt budur ki, Prezident İlham Əliyevin Azərbaycanı Avrasiyanın əsas tranzit vektoruna çevirmək strategiyası ölkənin geosiyasi əhəmiyyətini mühüm dərəcədə artırır. Azərbaycan ərazisindən keçən marşrutlar təhlükəsiz və səmərəli tranzitin təmin olunması üzrə səylər sayəsində həmişəkindən daha cəlbedici olub. Azərbaycanın dəmir yolu, avtomobil və dəniz yolu nəqliyyatı üçün müasir infrastrukturu həm vaxta, həm də maliyyə vəsaitlərinə qənaət edir.

Son məlumatlara əsasən, ötən il, yəni 2023-cü ilin yanvar-sentyabr ayları ərzində Azərbaycanda bütün nəqliyyat növləri ilə yük daşımalarının həcmi 166,9 milyon tona çatıb ki, bu da həmin ilin analoji dövrü ilə müqayisədə 5,9 % çoxdur.

Zəngəzur dəhlizinin açılması Xəzər dənizinin nəqliyyat şəbəkəsini, o cümlədən Şərq-Qərb və Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizini möhkəmləndirə bilər. Bu, həmçinin, Xəzər dənizindən Avropaya uzanan neft-qaz boru kəmərləri sistemini möhkəmləndirərək regionun tranzit potensialını artıra bilər. Bundan başqa, Zəngəzur dəhlizi Şərq-Qərb dəhlizinin bir hissəsi kimi Asiya və Avropanı Azərbaycan üzərindən birləşdirməklə ölkənin Avrasiyanın nəqliyyat-logistika qovşağı olaraq mövqeyini möhkəmləndirəcək.

İstənilən halda Zəngəzur dəhlizinin açılması qaçılmazdır. Əsas sual isə budur: Ermənistan bu prosesə töhfə vermək istəyirmi? İstəmirsə, onda günah yenə də İrəvanın boynunda qalacaq...

***Afət Tahirqızı***

# "Fransa ABŞ-ın maşası rolunu oynayır"



## RƏYLƏR

Prezident İlham Əliyev bildirib ki, rəsmi Paris regionda vəziyyətin gərginləşməsinin səbəbkarıdır. Fransa və tərəfdarlarının prezident seçkiləri zamanı hansısa təxribat törətmə ehtimalı varmı? SİA mövzu ilə bağlı politoloqlar Elxan Şahinoğlu və Cümşüd Nuriyevin fikirlərini öyrənib.

Elxan Şahinoğlu bildirib ki, Fransa prinsipcə təxribatları davam etdirir: "Sərhəddə də müşahidə missiyasının sayı artırılıb. Onlar artıq Azərbaycan sərhədinə çox yaxınlaşıblar. Missiya nümayəndələrindən biri sərhədimizi qanunsuz keçib və hazırda istintaq təcridxanasındadır. İstisna deyil ki, seçki günü də sərhəddə təxribat cəhdi olsun. Ona görə də hesab edirəm ki, artıq ordumuz və Dövlət Sərhəq Xidməti təhlükəsizlik tədbirlərini artırıb. Hansısa insident yaşansa belə, bu Azərbaycanda keçirilən prezident seçkilərinə təsir etməyəcək".

Cümşüd Nuriyevin sözlərinə görə, Azərbaycan Fransanın hansısa təxribat törətməsinə imkan verməyəcək: "Həm hüquq-mühafizə orqanlarının bu şansı onlara vermək ehtimalı yoxdur, ikincisi də Fransanın Azərbaycana gücü çatırmı? Onsuz da Fransa indiyə qədər Azərbaycanın əleyhinə olub. Rəsmi Paris bu proseslərin hamısında maşa rolunu oynayır, ABŞ-yə maşalıq edir. ABŞ İlham Əliyevin Qarabağda qazandığı zəfəri heç cür sindirə bilmir. Çünki ABŞ hazırda siyasi cəhətdən uğursuzluğa düçar olub. Mən özüm də Avropanın Azərbaycandakı nümayəndələrinin yaratdığı koalisiyanın müşahidəçisi kimi iştirak edəcəyəm. Əminəm ki, seçkilər çox yüksək səviyyədə keçiriləcək. Nəinki Fransa, Ermənistanı istəyən bütün qüvvələr Azərbaycanda heçnəyə nail ola bilməyəcəklər. Ölkənin böyük əksəriyyəti İlham Əliyevin tərəfdarıdır. Bu tip məsələlərdə narahat olmağa dəyməz. Həm Azərbaycan hüquq-mühafizə orqanları yüksək səviyyədə çalışırlar, həm də Azərbaycan İlham Əliyevin yanındadır".

***Rəşid Qarayev***

***Qədim tarixə malik olan və el arasında geniş yayılmış bayramlardan biri də Xıdır İlyas və ya Xıdır Nəbi adlandırılan mərasimdir. Bu bayram bir-birindən cüzi fərqlərlə demək olar ki, Azərbaycanın bütün bölgələrində keçirilir. Azərbaycan xalqı tarix boyu öz adət-ənələrini qoruyub saxlamış, ən çətin zamanlarda belə milli dəyərlərinə sahib çıxmışdır.***

# Mifoloji təfəkkürümüz: yaz müjdəçisi













Çoxəsrlik tarixində özünəməxsusluğu qoruyub saxlaya bilmişdir. Bu gün həmin dəyərlərin fonunda Azərbaycan xalqı öz tarixi keçmişinə söykənərək milli-mənəvi dəyərləri, ənənələri, əxlaqi keyfiyyətləri ilə dünya xalqları arasında seçilir və diqqəti çəkir. Əlbəttə ki, hər bir xalqın özünəməxsus dəyərləri, keyfiyyətləri mövcuddur və onları yaşatmağa çalışır. Zəngin irsə malik olan Azərbaycanda keçirilən bayramlar da xalqın genetik yaddaşından süzülüb gələrək onun milli-mənəvi dəyərlərini əks etdirir. Azərbaycan mənəvi mədəniyyətinin tərkib hissəsi olan bayramlar xalqımızın həyatında mühüm yer tutur. Qədim tarixi özündə ehtiva edən Azərbaycan xalqının məişətində mövcud olan bir çox bayramların tarixi qədimdir və onların başlanğıcı eramızdan əvvəlki minilliklərə söykənir. Məlumdur ki, bayramlar öz məzmununa görə dini və dünyəvi bayramlara bölünür. Azərbaycanda Ramazan bayramı, Qurban bayramı kimi dini bayramlarla yanaşı, dünya xalqları ilə bərabər olaraq qeyd etdiyi bayramlara da təsadüf olunur.

Qədim tarixə malik olan və el arasında geniş yayılmış bayramlardan olan Xıdır İlyas və ya Xıdır Nəbi adlandırılan mərasim Azərbaycanda Xızır Nəbi bayramı, İranda Əhli-haqq zümrələri arasında Zati Mutlaq şərəfinə Əli-Heydər adıyla, Təbriz ətrafındakı Qızılbaşlar zümrəsində isə yenə də Xızır Nəbi bayramı adı ilə tanınır. Bu bayram Azərbaycanın demək olar ki, bütün bölgələrində keçirilir. Naxçıvanda, eləcə də Laçın, Qubadlı, Zəngilan, Kəlbəcər, Cəbrayıl və Füzuli rayonlarında təntənəli şəkildə qeyd olunub.

## SUYUN, KÜLƏK VƏ HAVANIN HİMAYƏÇİSİ

Mənbələrdə göstərilir ki, rus tədqiqatçısı T.F.Aristova Laçın, Qubadlı və Zəngilan rayonlarında bu bayramın qeyd edilməsi prosesləri haqqında maraqlı məlumat verir. Qeyd edir ki, qışın ortalarında keçirilən bu bayramda azərbaycanlı qadınlar ailəsinin salamatlığı üçün sacda qovurğa qovurar, çay və bulaq kənarında müxtəlif rənglərlə bir neçə yumurta qoyaraq niyyət edirdilər. Ertəsi gün yumurtalara baxırdılar. Əgər yumurta qırmızı rəngə boyanmışdırsa yaxşı, qara boyanırdısa pis əlamət yozurdular.

Xıdır İlyas adətən, təbiətin oyanması, otların cücərməsi, axar suyun təmizlənməsi və s. təbii proseslərlə müşayiət edilir. Tədqiqatlarda Xıdır Nəbi bir şəxsiyyət olaraq "suyun, külək və havanın himayəçisi" kimi təqdim olunur. Qeyd edim ki, Xızır Nəbi bayramı Novruz bayramından əvvəl keçirilir. Bu bayramın keçirilməsi kiçik çilləyə təsadüf edilir. Bayramın tarixi günü ilə bağlı tədqiqatçılar, folklorşünas alimlər müxtəlif fikirlər irəli sürürlər. Bəzi mənbələrdə həmin bayramın kiçik çillənin qurtarmasına 2-5 gün qalmış, bəzilərində həmin mərasimin kiçik çillənin onuncu günündə, bəzilərində isə böyük çillədən dörd və kiçik çillədən üç gün olmaqla yeddi gün ərizində keçirildiyinə təsadüf edirik. Azərbaycanın xalq yazıçısı Əzizə Cəfərzadə isə "Xıdır İlyas" mərasiminin kiçik çillənin qurtardığı son üç gündə keçirildiyini göstərir. Başqa bir mənbədə isə Xıdır Nəbi bayramının fevralın 12-dən 20-dək keçirildiyi qeyd olunur.

## XIDIRIN KÜSMƏSİ RUZİ-BƏRƏKƏTİN YOX OLMASINA SƏBƏB OLAR

Xoşbəxtlik, ruzi, arzuların simvolu olaraq qeyd olunan bayramın kiçik çillənin çıxması münasibətilə keçirilməsi həm də qədim əkinçilik görüşləri ilə əlaqədardır.

Xıdır İlyas mərasiminə xüsusi hazırlaşırdılar. Xalq arasında belə inam vardır ki, əgər Xıdır Nəbi Boz atında gələrkən evlərdə bayram əhval-ruhiyyəsi görməzsə küsüb gedirdi. Xıdırın küsüb getməsi isə ruzi-bərəkətin yox olmasına səbəb olar, baharın gəlməsi gecikər. Buna görə də hələ kiçik çillənin birinci günündən başlayaraq bayram tədarükü görülürdü.

Üç gündən ibarət olan Xıdır Nəbi bayramının birinci günü torpaq tərif olunardı. Torpağın üstündə od qalanardı ki, torpağın nəfəsi qızınsın. Bağlar təmizlənər, çör-çöp, xəzəl yığılıb yandırılardı. Bayramın ikinci günü evdəki hər öküzün adına üç duzsüz kömbə bişirilib öküzlərin qarnının altından diyirləyər və oxuyardılar:

**Xıdır Nəbi, xan İlyas,**
**Açdı çiçək, gəldi yaz.**
**Mən Xıdırın quluyam,**
**Boz atının çuluyam.**

Bayramın üçüncü günü cütçü və əkinçinin şəxsində torpağı becərən, şum şumlayan, əkin əkən əməkçilər tərif olunardı. Boz at üzərində gələcək Xıdır Nəbinin əlində od olacağı güman edilərdi. Onun torpağı isidəcəyi, odla yanaşı günəş və suyun adamlara sağlamlıq gətirəcəyi düşünülərdi. Mərasimdə əkinçi, cütçü və sayaçı nəğmələri oxunar, "Xıdır Nəbi"yə nəğmələr, şeirlər qoşulardı. Bayramın hər üç günündə cavanlar əkin yerlərindən keçib Xıdır Nəbini axtarmağa gedərdilər. Onlara "Xıdırçı" deyərmişlər. Xıdırçılar hava işıqlanmazdan əvvəl əllərində şam Xızırın dalınca gedər və nəğmələr oxuyardılar.

## MİFİK OBRAZIN MÖVCUDLUĞU

Bayramın atributu isə qovrulmuş buğda və qovuddur. Bundan başqa digər paxlalı bitkilər, çərəz də mütləq süfrəyə qoyulmalıdır. Xəşil də ki, öz qaydası ilə. Ümumiyyətlə, qışda keçirilən bayramların hamısında bu xörək növü hazırlanır. Bayramda daha çox sevinən uşaqlardır. Xıdır Nəbi günü, Novruzda olduğu kimi, uşaqlar qapı-qapı gəzib papaq atırlar. Axşam şər qarışanda isə cavanlar və uşaqlar dəstələnib evləri qapı-qapı gəzərək "Xıdır" nəğməsini oxuyar və bayram payı yığardılar. Hansı qapıdan içəri girsələr, əvvəlcə dəstədən bir adam irəli çıxıb avazla oxuyardılar:

**Mən Xıdırın quluyam,**
**Göy atının çuluyam.**
**Ağzının arpasıyam**
**Ayağının nalıyam.**

Toplanan pay isə bərabər şəkildə bölünürdü. Bundan başqa həmin gün yükün altına qovud qoyarlar. Xalq inanclarına görə, əfsanəvi Xızır Peyğəmbər gəlib bu qovuda toxunarsa, həmin il o evdə ruzi-bərəkət olar. Bunu bilmək üçünsə ev sahibi səhər ertədən qovudun üzərində Xızırın atının izini axtarır. Hər hansı bir işarə varsa, deməli, niyyəti baş tutub.

Azərbaycan folklorunda Xızırla bağlı inamlar da sayca üstünlük təşkil edir. "Xıdır payı"ndan ertəsi günü yağla kömbə bişirər, qovut çəkilər və dəstənin üzvləri arasında bölünərdi. "Xıdır Nəbi" bayramında yumurta döyüşdürülürdü. Hansı yumurta sınsa, sahibi uduzmuş hesab olunurdu. Bu bayramda qapıpusma mərasimi də keçirilirdi. Qulaqları barmaqla yumaraq niyyət tutur və "filan evə qapı pusmağa gedirəm"- deyilərdi. Həmin qapıya çatanda qulağı açar, niyyəti eşitdiyi ilk sözlə sınayardılar. Qovurğanı məcməyiyə yayıb boş otaqda səhərədək saxlayardılar. Əgər səhər qovurğanın üzərində əl izləri görünsəydi, deməli, Xıdır İlyas o evə gəlmişdi, həmin il ailə üçün xoşbəxt il olardı.

Bütün bunlar göstərir ki, Xıdır Nəbi mərasimi xalq bayramı olmaqla yanaşı, həm də mifik bir obrazın - Xıdır İlyasın mövcudluğunu, mərasimlərdə şəxsən iştirak etdiyi barədə fikri yaddaşlarda möhkəmləndirir.

***Zümrüd BAYRAMOVA***

# Fransa Rusiyaya möhtac qalıb

## *Paris xəstəxanalarında dərman çatışmır, məktəbliləri isə bit basıb*



***Fransada vəziyyət çox acınacaqlıdır. Fermerlər üsyana qalxıb, hakimiyyətin ərzaq sənayeçilərinə qarşı yürütdüyü qərəzli münasibət kəndlə şəhər arasında getdikcə artan qarşıdurmanı bir az da dərinləşdirib. Ukraynadan çox ucuz qiymətə Fransaya və digər Avropa ölkəsinə gətirilən kənd təsərrüfatı malları yerli fermerlərin narazılığına səbəb olub. Məsələ Avropa Parlamentinin divarlarına qədər nüfuz etsə də Brüsseldən səs çıxmır, bütün Avropanı bürüyən etiraz dalğasını görməzdən gələn liderlər hələ də müzakirə aparırlar.***

Fransa mətbuatında bu ölkəyə gələn turistin yol qeydləri dərc olunub. Yox, o Fransa haqqında ənənəvi təəssüratlarını kimsə ilə bölüşmür, sadəcə olanları, xoşagəlməz hadisələri yaxınları ilə bölüşür: İşlə bağlı yenidən Fransanı gəzirəm. Mən naviqatora baxdım və məəttəl qaldım: o, məni Marseldən İtaliya, İsveçrə və Almaniya vasitəsilə Parisə göndərirdi! Adətən naviqatorumda yolların niyə məşğul olması ilə bağlı qeydlər olur, amma burada niyə mənə min kilometrlik bir dövrə vurmağı təklif etdikləri barədə bir kəlmə də yoxdur. Səbəb isə ...

Cavab televiziyadadır. Yəqin ki, siz də bilirsiniz: Fransa fermerləri tətil edirlər. Onlar kənd təsərrüfatı texnikasını yollara, şəhər küçələrinə sürüblər və elə ediblər ki, Parisdən Liona qədər olan bütün magistral yollar ölümcül tıxacda qalsın. Nəinki avtobanlar, hətta kiçik magistrallar belə, biz onlara dövlət yolları, dövlət yolları deyirik.

Vəziyyət heç vaxt bu qədər ciddi olmamışdı. Fermerlərin narazılığı uzun müddətdir davam etsə də, onların hökumətdən çoxlu şikayətləri var. Onların pensiyaları cüzidir - 840 avro, Fransada isə orta aylıq əmək haqqı təxminən 1530 avrodur. Kənd təsərrüfatına subsidiyalar kəsilib, yerli məhsullar, yerli işçi qüvvəsi hər fürsətdə xaricdən gətirilən, daha ucuz olanlarla əvəz olunur. Hansısa başqa ölkədə belə bir rəqəm işləyə bilərdi, əhali qlobalizmlə barışa bilərdi. Amma Fransada yox. Burada təkcə yaxşı deyil, həm də çox yaxşı yeməklərin çox güclü ənənələri var. Müvafiq olaraq, ucuz deyil. Əgər adi mağazada yerli çiyələk yoxdursa, bazarda yerli balıq yoxdursa, yalnız ispan və mərakeş meyvələri var və balıq Norveçdən gətirilibsə, fransız dönüb çıxıb gedir. O, idxal və dondurulmuş almaqdansa, makaron çeynəməyi üstün tutur. O, hətta italyan pomidorlarını da almayacaq, baxmayaraq ki, onlar daha pis olmasalar da, günəşin qoxusu kimidirlər. O, həqarətlə qaşlarını çatır, bu insanlar əsl pomidor yetişdirməyi bilirlərmi? Yeri gəlmişkən, italiyalılarda da eyni şey var. İtaliyalı gözəl, ətirli fransız pomidorları almayacaq - o, ancaq özünün olanları gətirənə qədər gözləyəcək.

Və beləliklə, bir ölkəni bu cür ənənələrlə Ukrayna buğdası, Ukrayna tərəvəz və giləmeyvə ilə doldurmağa çalışırlar. Bir fransız üçün bu, təhqir və sağlam düşüncəyə qarşı cinayətdir. Ona görə də vəziyyət bundan ağır ola bilməz. İnsanlar Ukrayna naminə öz kənd təsərrüfatını niyə öldürməli olduqlarını başa düşə bilmirlər.

U supermarketi adətən alış-veriş etdiyim böyük bir şəbəkədir. Adi meyvələrin təxminən dörddə biri piştaxtalarda yoxdur və pendirlər də əhəmiyyətli miqdarda deyil. Xəmir xörəkləri, tortlar, kruasanların nümayiş olunduğu rəflər isə tamamilə boşdur. Sanki kimsə Fransaya müharibə elan edib. Bu isə yolun blokadasının yalnız başlanğıcıdır. Fermerlər ciddi və qəzəblidirlər. Tezliklə yük maşınlarının onlara qoşulacağı təhlükəsi var. Marseldən olan bir tanışım orta ölçülü yükdaşıma agentliyinin sahibidir. "Mən sadəcə nə baş verdiyini başa düşmürəm" deyə mənə şikayət edir. - Litva, Estoniya və Ukraynada qeydiyyatdan keçmiş bəzi yeni gələnlər bizi bazardan sıxışdırıb çıxarırlar. Oradan növbəli işləyən sürücülərini gətirirlər. Fransada başdan ayağa bir yük maşını gəzintisi mənə təxminən 1500 avroya başa gəlir. Bura yol boyu bir neçə yükləmə-boşaltma, yanacaq, sürücüyə ödəniş və digər xərclər daxildir. Bütün əmək standartlarına uyğun olaraq. Və bunlar növbə ilə, gecə-gündüz, vəhşilər kimi və cəmi 700 avroya gəzirlər. Bu necə ola bilər?! Bu, necə iqtisadiyyatdır, belə sxemlə onların qazancı hanı? Tezliklə bütün fransız sürücülərini işdən çıxarmalı və şirkəti bağlamalı olacam!

Yeni baş nazir Attala hirsli fermerlərlə danışmaq səlahiyyəti verildi. Göndərməyə adam tapdılar... Cəmi 34 yaşı var, oriyentasiyası da məlumdur. Bizim fermerlərimiz, bir qayda olaraq, sadə və konkret, təcrübəli kişilərdir; Katolik dəyərləri məktəblərdə onlara aşılanıb, ailə və ənənələr üçündür. Onların Attalla hansı dialoqu ola bilər? Fermerlər qanunu pozmamaq üçün çox çalışırlar. Nə qədər davam edəcəklərini bilmirəm. Artıq bir facıə baş verib: fermerlərin iğtişaşına görə tıxacda ilişib qalan hansısa sürücü (yeri gəlmişkən, erməni) əsəblərini itirib. O, kənd təsərrüfatı texnikasının yaratdığı barrikadanı yarmağa çalışıb. Nəticədə iki nəfər ölüb.

Dünyanın hər yerində olduğu kimi, hazırda Fransada da başqa bir bədbəxtlik qrip epidemiyasıdır. Tanış bir ailədə beş yaşlı uşaq bu yaxınlarda öldü - həkimlər onun nə olduğunu vaxtında anlaya bilmədilər. Oğlan çox təriflənən uşaq xəstəxanasına aparıldı, bura Ancelina Coli də daxil olmaqla bir çox dünya səviyyəli ulduzların ziyarət etdiyi yerdir. Şəkil çəkdirdilər, xidməti, texnikanı, texnologiyanı, mütəxəssisləri... reklam etdilər. Bu xəstəxana oğlana heç bir kömək etmədi. Onu evə göndərdilər - orada uşaq boğulmağa başladı. Gələn təcili yardım maşını da kömək etmədən geri qayıtdı.

Mən sadəcə sakitləşə bilmirəm. Oğlan gözəl idi. Valideynlərin üzünə baxmaq mümkün deyil. Uşağın valideynləri mənə icazə vermədiyi üçün ad çəkmirəm. Onların indi buna vaxtları yoxdur. Mən bələdiyyə sədri olsaydım, ölən uşağın yaşadığı binanın önünə düzülən bu xatirə şamlarının yerinə təcili olaraq bütün bağçalarda heç olmasa kvars lampaları quraşdırardım. Sovet vaxtı uşaq bağçalarında bunlardan var idi. Bizi gəzməyə çıxarırdılar, daha az xəstələnməyimiz üçün otağı kvarslayırdılar. Mən həkim deyiləm və bəlkə də artıq bunu etmirlər, çünki texnologiya inkişaf edir. Ancaq epidemiya zamanı heç olmasa bir şey etmək lazımdır! Fransız məktəblərində bitlərin tez-tez rast gəlindiyi zaman orada hansı lampaların olmasına baxmayaraq, heç kimi təəccübləndirmir. Bizdən başqa, keçmiş SSRİ ölkələrindən olan mühacirlər uşaqlığımızda hansı sanitar normaların olduğunu xatırlayırıq.

Avropa təbabəti ayrı bir kədərli mövzudur. Yəqin ki, bu barədə sizə bir neçə dəfə deyilib, amma icazə verin, Fransada bunun necə işlədiyini qısaca xatırlayım. Ən son texnologiyalar və avadanlıqlar vasitəsilə dərhal testlər aparırlar - siz terapevtlə görüşdə oturursunuz və onlar artıq sizə nəticələri gətirirlər. Bu bir tərəfdən yaxşıdır, digər tərəfdən...

Ortaq cəhətlər çoxdur, tibbi sığorta sistemi təxminən bütün ölkələrdə olduğu kimidir. Hər kəs üçün məcburi olan sosial sığorta var, o, xidmətlərin təxminən 60 faizini əhatə edir. Kommersiya olanları var, onların qiyməti təxminən ayda 50 avrodur. Bunlar 90 faizini əhatə edir. Qalanı öz hesabınadır. Bir terapevtin qəbuluna düşmək hər ziyarət üçün 26,5 avrodur. Əvvəlcə ödəyirsiniz, sonra bu pul sığorta yolu ilə sizə qaytarılır.

Təcili yardım yalnız ən ekstremal hallarda, temperatur 39 və yuxarı olduqda gəlir. Bir mütəxəssis, cərrah və ya kardioloqla görüş üçün iki-üç ay gözləməlisiniz. Və dərmanlar, Fransada Rusiyada və digər ölkələrdə istehsal edilmiş bir çox dərmanın istifadəsi qadağandır. "Çox güclüdürlər, zərər verə bilərlər" bəhanəsi ilə. Onları hətta reseptlə də ala bilməzsiniz. Hətta Almaniyada yaşayan dostum Seryoqaya burun axıntısı üçün damcı sifariş edirəm! Fransızlar heç kömək etmirlər. Seryoqa ildə bir-iki dəfə mənə baş çəkir. Dərhal qaçaq yolla bu damlaların böyük bir qutusu gətirir.

Və qiymətlər haqqında. Səviyyəni başa düşməyiniz üçün: məsələn, ibuprofen, paket başına 5-6 avroya başa gəlir. Aptekinizdə onun qiymətini xatırlayın və müqayisə edin. Yeri gəlmişkən, Fransada kimisə ziyarətə getsəniz, ən çox yayılmış soyuqdəymə dərmanlarını da özünüzlə gətirin. İnanın, bu ən gözəl hədiyyədir, bunun üçün səni öpüb, ayağına baş əyəcəklər. Onları yalnız Fransada ala bilməzsiniz və onlar bahadır. Bu bir Fransa, Qərb, Avropa reallığıdır.

**V.VƏLİYEV**









# Yaxşılıq et, at dəryaya...



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Uşaq və gənclərin fiziki və mənəvi inkişafı" istiqaməti çərçivəsində hazırlanıb.*

***İlkin baxışda o qədər də mürəkkəb mənası olmadığını düşündüyümüz yaxşılığı müəyyən etmək, əslində, asan deyil. Heç bir qarşılıq gözləmədən edilən köməkdir yaxşılıq, belə təsnif edilir. Amma bu sözün tarixi dünyanın yaranma tarixi ilə yarışır desək, yanılmarıq. Yaxşılıq anlayışı empatiya, həmrəylik, xeyirxahlıq, təmənnasızlıq və bir çox bu kimi anlayışları özündə ehtiva edir. Yaxşılıq anlayışını digər hisslərdən fərqləndirən və bizi başqalarından daha çox insan edən də budur – bütün yaxşı duyğuları özündə cəmləməsi. İnsana, heyvana, təbiətə yaxşılıq, əslində, dünyaya olan sevgidir.***

## ...balığın bilmədiyini Xaliq mütləq biləcək



İnsan övladı yaranışından bu günədək xoşbəxtlik, mənəvi rahatlıq tapmağın bütün mümkün yollarını axtarıb. İbadət etmək, başqalarına yardım etmək, kimsəsizə kimsə olmaq, ehtiyaclının əlindən tutmaq kimi istəklər beləcə yaranıb. Xeyirxahlıq insanlıq əlaməti olmağa başlayandan bu günədək insan mənəviyyatı da yüksəlib.

Əslində, bütün dünyadakı insanlar bir-birinə görünməz bağlarla bağlıdırlar. Buna görə də etdiyimiz hər bir hərəkətin müəyyən mənada sonra bumeranq kimi özümüzə geri dönəcəyinin fərqində olmalıyıq.

Etdiyimiz hər bir yaxşılıq bir gün mütləq özümüzə geri qayıdacaq. Təəccüblü deyil ki, yaxşılıq edən insanlar ətrafdakılar tərəfindən yaxşı insan kimi xarakterizə edilir və daha çox sevilir. Onlar çətinə düşəndə daha çox dayaq duran olur, kömək istəyəndə hamı öz köməyini təklif edir. Qəzəbli, aqressiv və ya eqoist insanlar tənhalıq hissini daha çox yaşayır, çünki yaxşılıq etmək hissi onlara yaddır.



Baxmayaraq ki, mahiyyət etibarı ilə pulsuz, bəzən hətta öz maraqlarımıza zidd olaraq, bəzən də öz həyatımızı, sağlamlığımızı, işimizi təhlükəyə ataraq yaxşılıq edirik, bir gün o yaxşılığın əvəzi bizə geri qayıdacaq. Övaldımız hansısa təhlükədən xilas olanda, öz başımızı gələn hər hansı bir hadisə zamanı xəsarət almayanda ”anası namaz üstə imiş”, ”bir tikə çörəyi ovsanata düşüb” kimi bənzətmələr eşidirik. Bu, əslində, bir zamanlar təmənna güdmədən etdiyimiz yaxşılıqların əvəzidir.

### Yaxşı insan mükafatdır

Qarşılaşdığımız hər yaxşı insan, yaxşı hadisə etdiyimizi yaxşılığın mükafatı kimidir. Yaxşı əməl nəticəsində yaranan vəziyyətlərdə daim sevinc, inam, etibar, minnətdarlıq kimi gözəl hisslər paylaşılır və bu da bizim enerjimizə sirayət edir. Ona görə də analarımızı bizə dua edəndə ”Allah səni yaxşı insanlarla qarşılaşdırsın” deyirlər. Çünki yaxşı insan bizim taleyimizi dəyişə, pis hadisələrdən sığortalaya bilir.

Bioloji olaraq yaxşılıq etdiyimiz zaman beynimizin yemək və istirahət anlarında stimullaşdırılan həzz və mükafat mərkəzi aktivləşir. Bu davranışlar təkrarlandıqca





yaxşılıq etmək potensialımız artır, çünki orqanizmimiz bu həzzi təkrar yaşamaq üçün beynimizi, beynimiz isə bizi təhrik edir. Xeyirxahlıq vərdişə çevrildikcə bədənimiz və beynimiz buna uyğunlaşacaq. Beləliklə, müsbət emosiyalar yaşamaq , xoşbəxt olmaq üçün yaxşılıq etmək vərdiş halına gələcək.

İnsan da öz mənfəətlərini düşünmədən, özünə xeyri və ya zərəri olmadığını düşünmədən bir məqsədə xidmət etdikdə həyatından razı qalır. İnsan hər şeyini itirə bilər – vətənini, evini, işini, əşyalarını. Bunlar bərpa oluna bilən itkilərdir. Amma duyğularını, empatiyasını itirən insan canlı ölüdür. Zorakılığın, irqçiliyin, münaqişələrin, təcavüzün və ədalətsizliyin hökm sürdüyü bir dünyada səssiz qalmaq insanlıqdan kənardır. İnsan düzəldə biləcəyi vəziyyətlərə səssiz qalmamalıdır, bir insana abelə olsa yaxşılıq etmək dünyaya yaxşılıq etməkdir.

### Yaxşılıq et, sağlam qal

Araşdırmalar həm yaxşılıq edənin, həm yaxşılıq edilənin, həm də bu yaxşılığa şahid olanın fiziki sağlamlığında dəyişiklik olduğunu deyir. İstər yaxşı iş gör, istər sənə yaxşılıq edilsin, istərsə də başqasına edilən yaxşılığa şahid olasan, hər üç halda beynimizdən oksitosin hormonu ifraz olunur. Bu hormon qorxu, narahatlıq və stressi azaldır, eyni zamanda sakitlik və təhlükəsizlik duyğusunu artırır. Sevgi hormonu kimi tanınan oksitosinin, qan təzyiqini aşağı saldığı, ümumi ürək sağlamlığının yaxşılaşmasına kömək etdiyi, özünə inamı artırdığı da məlumdur. Bu hormon həmçinin bədənimizdə nikbinlik və qarşılıqlı münasibətlərdə empatiya və bağlılıq hissini gücləndirir.

Həmçinin, yaxşı işlər görəndə beynimizdə, adətən idmandan sonra da ifraz olunan endorfin hormonu ifraz olunur və bu hormon insan bədənindəki ağrıları azaltmaq funksiyasını yerinə yetirir. Üstəlik, yaxşılıq etmək orqanizmimizin ən təhlükəli reaksiyalarından biri olan stressi azaldır və dolayısı ilə stresslə bağlı yaranan xəstəliklərdən qoruyur.

Yaxşılıq edən insanın orqanizmində dərhal serotonin ifraz olunmağa başlayır. Yaxşılıq etdiyimiz zaman bədənimiz sakitləşdirici effekti verən, xoşbəxtlik hormonu tanınan serotonin istehsal etməyə başlayır. Başqa sözlə desək, yaxşılıq etmək təkcə xoşbəxtliyi artırmır, həm də insanları depressiv vəziyyətdən çıxarır. ”British Columbia” Universitetində xeyirxahlıq və narahatlıq arasındakı əlaqəni araşdıran bir araşdırmada, həftədə ən az altı dəfə yaxşı işlər görən, başqalarına yaxşılıq edən və ifrat dərəcədə narahat olan insanların bir aydan sonra narahatlıq səviyyələrində azalma müşahidə edilib.”Stanford” Universitetində aparılan başqa bir araşdırma zamanı isə xeyirxahlığın şahidi olmağın yaxşılıq etməyə sövq etdiyi və bu hissin yoluxucu olduğu müşahidə edilib.

”British Columbia” Universitetinin ”Yaxşılıq etmək insanı necə dəyişir?” adlı araşdırması zamanı isə bu sosial layihəyə qatılan könüllülərdən gün ərzində 50 dollar xərcləmələri istənilib. İştirakçılara bu pulu özlərinə, başqasına, hər hansı bir insana və ya heyvana xərcləyə biləcəkləri bildirilib. Nəticə etibarilə, bu pulu özlərinə bir şey almaqdansa, başqalarına kömək etmək üçün xərcləyənlərin özlərini daha xoşbəxt hiss etdikləri məlum olub. Ümumiyyətlə, aparılan bütün araşdırmalar, xeyirxahlığın beyində müşahidə edilə bilən bir qabiliyyət, anadangəlmə bir xüsusiyyət olduğunu aşkarlayıb. Yəni, insan anadangəlmə ya xeyirxah olur, ya da bədxah. Bəşəriyyətin qurtuluşu xeyirxahların bədxahlar üzərindəki mütləq qələbəsi ilə mümkündür.

***Lalə Mehralı***

SON SƏHİFƏ
SƏS
6 fevral
2024-cü il

# Əmək pensiyaları nə qədər artırılacaq?



***Prezident İlham Əliyevin yeni sərəncamı ilə bütün növ pensiyalar indeksləşdirilərək 11,2 faiz artırılıb. Bu barədə SİA-ya Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyindən məlumat verilib. Qeyd olunub ki, dövlət başçısının imzaladığı yeni "Əmək pensiyalarının indeksləşdirilməsi haqqında" Sərəncam pensiyaçıların sosial müdafiəsinin gücləndirilməsi, pensiyaların artırılması istiqamətində ardıcıl şəkildə atılan addımların növbəti davamıdır.***

Sərəncamla 2024-cü il yanvarın 1-dək təyin edilmiş bütün pensiyalar Dövlət Statistika Komitəsinin təqdim etdiyi məlumata əsasən, 2023-cü il üzrə orta aylıq nominal əməkhaqqının illik artım tempinə uyğun olaraq 11,2 faiz indeksləşdirilməklə bu ilin 1 yanvar tarixindən artırılır. Həmçinin qulluq stajına görə əlavələr təyin edilmiş pensiyaların həmin əlavələrlə birlikdə

*NAZİRLİK AÇIQLADI*

müəyyən edilmiş məbləğlərinin və 2023-cü il yanvarın 1-dən pensiyaların tərkibinə daxil edilən maddi yardımların da qeyd olunan qədər indeksləşdirilməklə bu ilin əvvəlindən artırılması təmin edilir.

Artımlar elektron sistem üzərindən avtomatik şəraitdə həyata keçirilir və pensiyaçıların bunun üçün hər hansı sənəd təqdim etmələrinə, müraciətinə ehtiyac yoxdur. Yanvar ayı üzrə pensiyalara edilmiş artımlar fevral ayının pensiyası ilə birgə ödənəcək.

Məsələn, şəxsin pensiyası 500 manatdırsa, bu məbləğ cari il yanvarın 1-dən 11,2 faiz, yəni 56 manat artırılmaqla 556 manata çatdırılacaq, yanvar ayının 56 manat artımı da fevral ayının pensiyasına əlavə olunaraq veriləcək. Ümumilikdə 1,1 milyon pensiyaçını əhatə edən artımlar üçün illik əlavə olaraq təqribən 630 milyon manat xərclənəcək. Qeyd edək ki, pensiyaların indeksləşdirilməklə artırılması ötən ilin əvvəlindən bütün növ pensiyalara şamil olunur.

## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressainform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

## Bahalı avtomobil nömrələrinin satışı necə həyata keçirilir?




"Avtomobil nömrələrinin qeydiyyatı Daxili İşlər Nazirliyinin Baş Dövlət yol polisi tərəfindən həyata keçirilir". Bu barədə SİA-ya açıqlamasında nəqliyyat eksperti Aslan Əsədov deyib. Onun sözlərinə görə, belə hallara nəzarət də həmin qurum tərəfindən həyata keçirilir: "Nömrələrin alışı və satışı dövlət rüsumu ilə tənzimlənir. Dövlət rüsumu hərflərə, rəqəmlərə uyğun dəyişə bilir. Amma bəzi şəxslər də var ki, bundan qazanc mənbəyi kimi istifadə etməyi bacarırlar. Onlar

*EKSPERT İZAH ETDİ*

nömrəni əvvəlcədən alaraq satışını həyata keçirirlər".

Ekspert bildirib ki, burada bəzən böyük pullar rol oynayır: "30 min manata, 50 min manata avtomobil nömrələrinin satıldığının da şahidi oluruq. Bu nömrələrin dövlət qeydiyyat rüsumları artıq sövdələşmədən asılı olaraq dəyişir. Bəzi adam nömrəni satır qeydiyyat rüsumunu da qarşılayır, bəzisi isə əksinə rüsumu ödəmir, alan şəxs qarşılayır. Belə hallar birbaşa şəxslərin özündən asılıdır. Hansısa nömrəni əvvəlcədən əldə edir, sonradan sata da, saxlaya da bilirlər".

***Rəşid***

## ELAN

**Miriyeva Südabə İdris qızına 25.06.1993-cü il tarixdə E.Yəhyayev adına orta məktəb tərəfindən verilmiş AN№091952 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.**

## "Gənclərin məşğulluq məsələlərinə xüsusi diqqət ayrılmalıdır"

MÜNASİBƏT

"Azərbaycanda gənclər əhalinin böyük əksəriyyətini təşkil edir. 10 il əvvəlki Azərbaycan statistikasına görə, bu gün gənclərin sayında enmə var. Əvvəl gənclər ölkə əhalisinin 29-30%-ni təşkil edirdisə, indi 21-22%-ni təşkil edir. Bu, o deməkdir ki, ölkə əhalisi içərisində gənclərin statistikasında enmə dinamikası müşahidə olunur. Bu, həm də o deməkdir ki, Azərbaycanda təbii artımda enmə var. Əvvəllər Azərbaycanda çoxuşaqlı ailələr üstünlük təşkil edirdisə, indi ailə planlamasında 1, 2, ən yaxşı halda 3 uşağa üstünlük verilir. Ona görə də yaxın və orta perspektivdə də gənclərin sayında artım müşahidə olunmayacaq". Bu barədə SİA-ya açıqlamasında sosioloq Üzeyir Şəfiyev deyib.

Onun sözlərinə görə, gənclər siyasəti ilə bağlı dövlətimizin bir sıra proqramları var: "Hesab edirəm ki, dövlətin gənclərlə bağlı qəbul etdiyi qərarlara, sərəncamlara nəzarət mexanizmi gücləndirilməlidir. Rəsmi statistikaya görə, gənclər arasında işsizliyin səviyyəsi 9-11% göstərilir. Nəzərə alsaq ki, gənclər Azərbaycanın sabahıdır, gənclərin məşğulluq məsələlərinə xüsusi diqqət ayrılmalıdır. Regionların sosial-iqtisadi inkişafı ilə bağlı hər 5 ildən bir xüsusi dövlət proqramı qəbul olunur. Bu proqramın işləmə mexanizminə nəzarət gücləndirilməlidir. Regionlarda gənclər evlərinin funksionallığına diqqət yetirilməli, işdənkənar fəaliyyət sahələri yaradılmalıdır. Paytaxt gəncləri üçün kitabxanalara, informasiya mənbələrinə əlçatanlıq daha rahatdır, nəinki region gəncləri üçün".

Sosioloq qeyd edib ki, gəncləri paytaxta gətirən, xaricə aparan səbəbləri aradan qaldırmaq lazımdır: "Regionlarda gənclər üçün lazımi şərait olsa gənclər bu yola üz tutmazlar. Böyük mədəniyyət, sənət tədbirləri həm də regionlarda keçirmək lazımdır ki, bölgə gəncləri də paytaxta, xaricə üz tutmasın. İlk növbədə, regionla paytaxtın fərqləri azaldılmalıdır ki, gənclər paytaxta kütləvi şəkildə köç etməsin, regionda qalıb işləyə bilsinlər. Gənclər şəhərə üz tutur və kəndlər boşalır. Bunun qarşısını almaq üçün böyük bir sosial tədqiqat lazımdır".

Müsahibimiz bildirib ki, gənclərin məşğulluğu ilə bağlı digər mühüm məqam əmək



bazarına uyğun ixtisaslara yiyələnməkdən ibarətdir: "Bəzən gənclər ali təhsil üçün elə sahələrə axın edir ki, o sahə üzrə əmək bazarında kadr bolluğu var. Amma elə sahələr də var ki, onlarda da kadr qıtlığı özünü göstərir, amma gənclər bu sahələrə yönəlmir. Bu məsələyə futuristik yanaşmaq lazımdır. 5 ildən, 10 ildən sonra əmək bazarı hansı kadra ehtiyac duyacaqsa gəncləri hətta orta məktəbdən həmin ixtisaslara istiqamətləndirmək lazımdır ki, onlar gələcəkdə əmək bazarında ehtiyac duyulan ixtisaslara yiyələnsinlər. Gənclərin ixtisas seçimi ilə bağlı həm ali təhsil müəssisələri, həm də Elm və Təhsil Nazirliyi orta məktəblərdə iş aparmalıdır. Yəni orta məktəblərdən ixtisasları tanıtmağa, təqdim etməyə başlamalıdır ki, gələcəkdə önəm təşkil edəcək ixtisaslar üçün kadr hazırlansın".

***R. Qarayev***

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 2700**